RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 36 (9203) 17 FEVRAL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Avropa Azərbaycana güvənir

## Yaxın gələcəkdə "qoca qitə"nin daha çox ölkəsi Azərbaycandan gələn enerji ilə isinəcək

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın yüksəlişini xarakterizə edən amillərin əhatə dairəsi olduqca genişdir. İqtisadiyyatda əldə etdiyimiz uğurlar, qlobal miqyasda mövqelərimizin möhkəmlənməsi, dövlətimizin müstəqil və qətiyyətli siyasət yürütməsi, 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi, regionda və dünyada söz sahibi olmağımız və digər bu kimi amillər göstərir ki, Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.**

### Anlaşma Memorandumu uğurla icra olunur

Azərbaycanın yüksəlişindən xəbər verən məsələlər sırasında təbii ki, respublikamızın enerji siyasətinin öz yeri var. Müdrikcəsinə həyata keçirilən bu siyasətin nəticəsində respublikamız beynəlxalq müstəvidə söz sahibinə çevirilib. Enerji və digər iqtisadi layihələrin reallaşması nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövləti statusunu qazanıb. Bu gün respublikamız Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biridir.

Son illərdə ölkəmizin enerji siyasətində müxtəlif möhtəşəm hadisələr baş verdi. Bunların sırasında "Cənub qaz dəhlizi"nin reallaşması bütövlükdə Avrasiya regionunun enerji xəritəsində mühüm dəyişiklik etdi. Prezident İlham Əliyevin liderliyi ilə həyata vəsiqə alan bu enerji dəhlizi ilə Xəzərdə hasil olunan təbii qaz tarixdə ilk dəfə alternativ marşrutla Avropa bazarlarına çatdırıldı. Hazırda Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya kimi dövlətlər Azərbaycan qazının alıcılarıdır.

Azərbaycanla enerji sahəsində əməkdaşlıq Avropada, xüsusən Avropa İttifaqı səviyyəsində yüksək qiymətləndirilir. Aİ üzvü olan dövlətlərin bir qismi ilə münasibətlərin strateji məzmun daşıması da bunu təsdiq edir.

Hazırda gərgin hərbi-siyasi proseslər səbəbindən Avropa yeni çağırışlarla üzləşib və bu müstəvidə enerjiyə olan tələbat da kəskin şəkildə artıb. Bir çox Avropa ölkələrində tarixboyu görünməmiş dərəcədə enerji mənbələrinə ehtiyac duyulur. Elə buna görə də Azərbaycanın enerji marşrutlarının daha da genişləndirilməsi ilə bağlı təşəbbüsləri Avropa İttifaqının xüsusilə diqqət yetirdiyi məsələlərdir. Bu çərçivədə Azərbaycanla Aİ və ayrı-ayrı dövlətlər arasında enerji dialoqu davam edir. Ötən il iyulun 18-də Bakıda imzalanan "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" da enerji sahəsində genişlənən əməkdaşlığın göstəricisidir.

→ 3

# Azərbaycan Litva ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir



Litva Respublikasının Prezidenti
zati-aliləri cənab Gitanas Nausedaya

Hörmətli cənab Prezident,

Litva Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Litva arasında münasibətlər xoş ənənələrə malikdir və biz bu münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk.

Keçən ay Sizinlə Davosda keçirdiyimiz görüşü və apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin genişlənməsi, əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkanlar formalaşmışdır.

İnanıram ki, Azərbaycan-Litva münasibətləri və qarşılıqlı faydalı əməkdaşlığımız həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2023-cü il*

# Əminə Ərdoğan Birinci vitse-prezident Mehriban Əliyevaya və Azərbaycana təşəkkür edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərdiyi dəstəyə görə Azərbaycana və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Əminə Ərdoğanın rəsmi tviter hesabında bununla bağlı etdiyi paylaşımda deyilir: "Dərdiniz dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Axtarış-xilasetmə qrupları başda olmaqla, humanitar yardım təyyarələri ilə ilk gündən bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm".

# Mehriban Əliyevanın tapşırığı ilə...

## Daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb



→ 4

# "ASAN xidmət" "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" mükafatına layiq görülüb

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən 10-cu Dünya Hökumət Sammitində "ASAN xidmət" "Qlobal Hökumət Mükəmməlliyi Mükafatı" Proqramı çərçivəsində "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" seçilib və xüsusi mükafata layiq görülüb.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

→ 3

# Türkiyədəki zəlzələdə həlak olan azərbaycanlı tələbələr dəfn edilib

**Türkiyədə baş vermiş dəhşətli zəlzələdə həlak olan azərbaycanlı tələbələr Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə fevralın 16-da dəfn ediliblər.**

AZƏRTAC xəbər verir ki, tələbələrin cənazələri Bakıya ötən gün təyyarə ilə gətirilmişdi. Türkiyənin Malatya şəhərində zəlzələ nəticəsində uçan binanın dağıntıları altında qalaraq həlak olan Şahin Vəliyev Gəncədə, Hümam İsmayıllı və Gündüz Nəzərzadə Sumqayıtda, Samir Quliyev Gədəbəydə torpağa tapşırılıb.

Dəfn mərasimlərində mərhumların ailə üzvləri, yaxın qohumları, ictimaiyyət nümayəndələri, icra hakimiyyətlərinin rəhbər şəxsləri iştirak ediblər.

# Bakı-Tbilisi-Qars dəmir yolu ilə Türkiyəyə yardım yola salınıb

**Fevralın 16-da "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov və Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının iştirakı ilə Biləcəri dəmir yolu stansiyasından qardaş ölkəyə 25 konteynerdən ibarət humanitar yardım yola salınıb.**



AZƏRTAC xəbər verir ki, yardım Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Kahramanmaraş və 10 vilayətdə baş vermiş güclü zəlzələdən zərər çəkmiş insanlara çatdırılacaq.

Bu gün yola salınan humanitar yardım əsasən tibbi ləvazimatlar, qızdırıcılar və generatorlardan ibarətdir və 3 gün ərzində mənzil başına çatacaq.

# Uşaqlar arasında influenza infeksiyasına yoluxma artıb

Xəstəliyə səbəb immunitetin azalmasıdır. İmmuniteti güclü olan insanlar onu simptomsuz və ya zəif əlamətlərlə keçirirlər. Hava-damcı yolu ilə yayılan infeksiyanın gizli dövrü 7 gündür. Sonra digər əlamətlər üzə çıxaraq 3-5 gün davam edir və tədricən sağalma dövrü başlayır.

Orqanizm virus və ya digər mikroorqanizmlərlə mübarizə etmək üçün 38 dərəcəyə yaxın temperaturda daha aktiv mübarizə aparır. Hərarəti zorla aşağı salmaq xəstəliyin gedişini dayandırmır, əksinə, müxtəlif ağırlaşmalara gətirib çıxarır.

Hərarətsalıcı dərmanlar uşaqlara yaş və çəkisinə uyğun olaraq 4-5 saatdan tez olmayaraq verilməlidir. Həmçinin bir neçə fərqli dərman preparatlarını eyni zamanda istifadə etmək olmaz (məsələn, həm ağızdan, həm də şam kimi düz bağırsaqdan). Əks halda qastroenteroloji problemlərə, mədənin selikli qişasında qanaxmaya və ya qaraciyərdə funksiya pozuntusuna səbəb olub xəstəliyin gedişatını daha da ağırlaşdıra bilər.

→ 8

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeşin ölkəmizdəki səfiri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 16-da Mərakeş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarşla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərlə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanır və siyasi sahədə yaxşı əlaqələr mövcuddur. Azərbaycanla Mərakeş beynəlxalq təşkilatlar çərçivəsində daim yaxından əməkdaşlıq edir, bir-birini dəstəkləyir. Mərakeş Azərbaycanın beynəlxalq səviyyədə, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində təşəbbüslərini hər zaman dəstəkləyib.

Görüşdə münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin rolu vurğulanaraq bildirilib ki, bu səfərlər təkcə dövlətlərimiz arasında deyil, insanlarımız arasında da əlaqələrin dərinləşməsinə töhfə verə bilər. Xalqlarımız bir çox ortaq baxışları bölüşürlər. Multikulturalizm, digərlərinə hörmət, islamofobiyanın rədd edilməsi kimi məsələlər xalqlarımızın tarixi-mənəvi dəyərləri sırasındadır. O cümlədən qeyd olunub ki, deputatlar arasında təmasların, qarşılıqlı səfərlərin artırılması parlamentlərimiz arasında daha geniş əlaqələrin yaradılmasına imkan verə bilər. Həmçinin parlamentlərimizdə fəaliyyət göstərən dostluq qruplarının əməkdaşlığı, onların birgə fəaliyyətinin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, parlamentarilərimizin birgə işləyə biləcəyi islamofobiyaya, beynəlxalq münasibətlər sistemində müşahidə olunan ikili standartlara qarşı birgə mübarizə və bu kimi digər mövzular çoxdur.

Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeşin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində fəal iştirakı, o cümlədən bu platformanın Madriddə keçirilən təsis, Bakıda keçirilən Birinci konfransında təmsil olunmasını yüksək qiymətləndirərək Parlament Şəbəkəsinin institusional inkişafı, qarşıda duran vəzifələr barədə danışıb.

Görüşdə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə, ərazi bütövlüyümüzün bərpa olunması, hazırda işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verilib, Azərbaycan və Mərakeşin ərazi bütövlüyü məsələsində də bir-birini dəstəklədiyi diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# Milli Məclisdə görüş

**Fevralın 16-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri arasında görüş keçirilib.**



Tədbiri giriş sözü ilə açan komitə sədri Tahir Mirkişili bildirib ki, VI çağırış Milli Məclisin yaz sessiyasının iş planına daxil olan məsələlərdən biri də ictimai sektorla görüşlərin keçirilməsi və ictimai iştirakçılığın artırılmasıdır. O bildirib ki, qanunverici aktların hazırlanması və müzakirəsində ictimaiyyətin iştirakının təmin edilməsi diqqətdə saxlanılır və bu, aktların müzakirəsi zamanı ictimaiyyətin rəyi xüsusi qiymətləndirilir.

Komitə sədri İqtisadiyyat Nazirliyi yanında İctimai Şura ilə kifayət qədər konstruktiv əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirərək belə formatda görüşün ilk dəfə təşkil edildiyini bildirib, qanunvericiliyin təkmilləşdirilməsi və yeni təkliflər baxımından əlaqələrin genişləndirilməsi zəruriliyindən danışıb. Onun sözlərinə görə, "İctimai iştirakçılıq haqqında" qanunun tələblərinə əsasən, iştirakçılığın əsas məqsədlərindən biri də dövlət siyasətinin hazırlanmasında və icrasında ictimaiyyətin fəal iştirakının təmin edilməsidir. İctimai Şuranın potensialını yüksək qiymətləndirən Tahir Mirkişili birlikdə əməkdaşlığın qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsinə, iştirakçılığın tam təmin edilməsinə töhfə verəcəyindən əminliyini ifadə edib.

Tahir Mirkişili bildirib ki, ictimai sektorun iştirakçılığı, islahatların davam etdirilməsi ölkə iqtisadiyyatının daha da inkişafına töhfə verə bilər. İctimai Şuralarla bağlı Türkiyənin təcrübəsindən bəhs edən komitə sədri cəmiyyətdə və idarəetmədə ictimai təşkilatların rolunu xüsusi qeyd edib. Komitə sədri bu sahədə görüləcək işlərdən danışaraq Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə görüşlərin nəzərdə tutulduğunu da diqqətə çatdırıb.

Görüşdə çıxış edən İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, şura bir il yarımdır ki, fəaliyyətə başlayıb. O qeyd edib ki, "İştirakçılıq haqqında" qanunun tələblərinə uyğun olaraq, İctimai Şuranın qarşısında duran ən mühüm məsələ sahibkarların normativ hüquqi sənədlərin hazırlanmasına cəlb edilməsidir. Bu istiqamətdə mexanizmlərin hazırlanmasının vacibliyini vurğulayan İctimai Şuranın sədri bildirib ki, sahibkarların əksəriyyəti şuranın fəaliyyətindən xəbərsizdirlər. O diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətə uyğun olaraq, İctimai Şuranın mandatı ondan ibarətdir ki, vətəndaşların marağı çərçivəsində fikirlər öyrənilir və iqtisadiyyat naziri bu barədə məlumatlandırılır.

Şura sədri bu prosesə qoşulmaq üçün diferensiallaşma və rəqəmsallaşmasının zəruriliyini qeyd edib. O bildirib ki, birgə fəaliyyət ümumi işə, qanunvericiliyin təkmilləşdirilməsinə öz töhfəsini verəcək.

Görüşdə çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Ziyad Səmədzadə, Məşhur Məmmədov, Rüfət Quliyev, Vüqar Bayramov, Elnur Allahverdiyev və Aydın Hüseynov fikirlərini bildiriblər, təkliflərini səsləndiriblər.

İctimai Şuranın katibi Fərhad Qaraşov, Dövlət Vergi Xidmətinin, Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov, "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası" İctimai Birliyinin sədri Səkinə Babayeva, İqtisadi və Sosial İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Rəşad Həsənov, "Şəffaflıq - Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin sədri Əliməmməd Nuriyev çıxış edərək iştirakçılıqla bağlı rəylərini ifadə ediblər, qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Söhbət zamanı İctimai Şuranın üzvlərini maraqlandıran suallara aydınlıq gətirilib.

***"Azərbaycan"***

# BMT Əhali Fondunun qiymətləndirmə qrupu Milli Məclisdə olub

**Fevralın 16-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvü Nigar Arpadarai BMT Əhali Fondunun qiymətləndirmə qrupu ilə görüşüblər.**



Görüşdə çıxış edən Hicran Hüseynova Azərbaycanda əhalinin sağlamlığının qorunması, ailə planlaşdırılması, gender bərabərliyinin təmin edilməsi, demoqrafik inkişaf, gənclərin iştirakçılığı və digər sahələrdə görülən işlərdən, reallaşdırılan layihələrdən, dövlət siyasətindən və əldə olunan müsbət nəticələrdən danışıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2020-2022-ci illər ərzində bu istiqamət üzrə gördüyü işlərdən bəhs edən Hicran Hüseynova mütəmadi olaraq müxtəlif mövzularda dinləmələr keçirildiyini qeyd edib. Bildirib ki, bu dinləmələr zamanı mövcud gender stereotipləri və onların aradan qaldırılmasında qanunvericilik sahəsində hansı dəyişikliklərə və əlavələrə ehtiyacın olduğu müzakirə edilib, müxtəlif təkliflər səsləndirilib. Komitə sədri diqqətə çatdırıb ki, bu tədbirlərdə BMT-nin nümayəndələri aktiv iştirak ediblər və təkliflərini səsləndiriblər. O, eyni zamanda BMT-nin Əhali Fondu ilə birgə görülən işlərdən də bəhs edib.

Görüşdə BMT Əhali Fondunun qiymətləndirmə qrupunun nümayəndəsi Aşley Major təmsil etdiyi qurumla Azərbaycanın birgə həyata keçirdiyi proqram və layihələrdən danışıb. Bildirib ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə 2020-ci ildən reallaşdırılan "Avropa İttifaqı Gender Bərabərliyi naminə Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı da bu sahədə olan layihələrdəndir. Hazırda üç il ərzində icra edilən fəaliyyətin nəzərdən keçirilməsi, eləcə də növbəti mərhələnin başlanması məqsədi ilə sözügedən layihənin qiymətləndirilməsi həyata keçirilir. O, ölkəmizə qiymətləndirmə missiyasının həyata keçirilməsi məqsədilə gəldiyini deyib.

Görüş zamanı qonağı maraqlandıran suallar cavablandırılıb, gələcəkdə BMT-nin Əhali Fondu ilə birgə reallaşdırıla biləcək layihələr və işlər barədə təkliflər səsləndirilib.

***"Azərbaycan"***

# Azərbaycan və Türkiyənin XİN başçıları zəlzələ bölgəsindəki vəziyyəti müzakirə ediblər

**Fevralın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Türkiyə Respublikasında böyük insan tələfatı və güclü dağıntılara səbəb olan zəlzələ nəticəsində zərərçəkmiş əhalinin xilas olunması, humanitar yardım göstərilməsi istiqamətində aparılan əməliyyatlar və işlər üzrə son vəziyyət müzakirə edilib.

Baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə bağlı bir daha başsağlığı diləklərini çatdıran nazir Ceyhun Bayramov zəlzələ nəticəsində xəsarət almış şəxslərə şəfa diləyib. Nazir Ceyhun Bayramov Azərbaycanın hər zaman olduğu kimi, bu çətin günlərdə də qardaş Türkiyənin yanında olduğunu, baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində öz dəstəyini davam etdirəcəyini bildirib. Nazir Ceyhun Bayramov qardaş Türkiyənin bu ağır sınaqdan da üzüağ çıxacağına dair inamını əminliklə ifadə edib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu həmçinin zəlzələ bölgəsində son vəziyyət, xilasetmə əməliyyatlarının gedişatı barədə ətraflı məlumat verib.

Telefon danışığı zamanı həmçinin bölgədə mövcud vəziyyət, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Polşa arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib

**Fevralın 16-da Fövqəladə Hallar Nazirliyində (FHN) Azərbaycan Respublikası və Polşa Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, Polşanın iqtisadi inkişaf və texnologiyalar nazirinin müavini, Dövlət katibi Qjeqoj Pexoviak və onların rəhbərlik etdikləri komissiyanın hər iki tərəfdən olan üzvləri iştirak ediblər.

İclas iştirakçılarını səmimi salamlayan nazir K.Heydərov ilk növbədə, Hökumətlərarası Komissiyanın növbəti iclasının işində uğurlar arzulayıb.

Nazir bildirib ki, tarixi köklərə və xoş ənənələrə malik olan Azərbaycan-Polşa münasibətləri müasir dövrdə əməkdaşlığımız üçün möhkəm zəmin yaradıb. Xalqlarımız arasında dostluq ənənələrinə söykənən və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimizin hazırkı vəziyyətinin məmnunluq doğurduğunu bildirən K.Heydərov iqtisadi əlaqələrimizə təkan vermək, ölkələrimiz arasında ticarət dövriyyəsini artırmaq üçün əlverişli şəraitin mövcud olduğunu diqqətə çatdırıb. İki ölkə liderlərinin - Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda arasında keçirilmiş səmərəli görüşlər və mövcud qarşılıqlı siyasi etimad ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi üçün möhkəm əsaslar yaradıb. Bu çərçivədə ölkələrimiz arasında müxtəlif sənaye sahələri üzrə istehsal müəssisələrinin yaradılması, o cümlədən nəqliyyat və logistika, dəmir yolu infrastrukturu, kənd təsərrüfatı, turizm, qida, əczaçılıq və s. sahələrə investisiyaların yatırılması əməkdaşlığın inkişafına və ikitərəfli əlaqələrin daha da dərinləşməsi və şaxələnməsinə öz töhfəsini verəcək. 2018-ci ildən Varşavada Azərbaycan Ticarət Evinin fəaliyyət göstərdiyini xatırladan nazir "Made in Azerbaijan" brendinin Polşa bazarında təşviqi, həmçinin Azərbaycan məhsullarının Mərkəzi və Şərqi Avropada tanıdılması baxımından Ticarət Evinin əhəmiyyətini qeyd edib.

K.Heydərov Azərbaycanda beynəlxalq yük daşımalarına imkan verən müasir nəqliyyat infrastrukturunun formalaşdırıldığını vurğulayaraq ikitərəfli komissiya tərəfindən yaradılmış Nəqliyyat və logistika üzrə Polşa-Azərbaycan işçi qrupunun bu ilin martında Bakıda keçiriləcək ikinci iclası çərçivəsində beynəlxalq yük daşımalarla bağlı iki ölkənin tranzit potensialından tam istifadə edilməsi və Transxəzər beynəlxalq nəqliyyat marşrutu ilə daşımaların təşviqi sahəsində birgə tədbirlərin davam etdiriləcəyinə əminliyini bildirib.

Nazir həmçinin 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında qəhrəman ordumuz tərəfindən 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızın azad olunması, bu ərazilərdə hazırda sürətlə davam edən abadlıq və quruculuq işləri barədə məlumat verib, Polşa iş adamlarını, biznes dairələrini və sərmayəçilərini buraya investisiya yatırılmasına dəvət edib.

Bundan əlavə, 2021-ci ilin 1 iyulunda Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Ələt Azad İqtisadi Zonası barədə məlumat verən nazir K.Heydərov Polşa biznes dairələri və xüsusilə sənaye sahəsini əhatə edən Polşa sərmayəçiləri üçün burada həyata keçirilən layihələrdə iştirakın maraqlı olacağına əminliyini ifadə edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Hökumətlərarası Komissiyanın həmsədri Polşanın iqtisadi inkişaf və texnologiyalar nazirinin müavini, Dövlət katibi Qjeqoj Pexoviak komissiyanın iclasının yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.

Q.Pexoviak ölkələrimiz arasında ənənəvi dostluq əlaqələrinə diqqət çəkərək münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdiyini xatırladıb. Qonaq Avropa İttifaqının ən böyük və ən dinamik inkişaf edən ölkələrindən biri olan Polşa və Cənubi Qafqazın ən böyük ölkəsi, dünyanın strateji əhəmiyyətli coğrafi zonasında yerləşən Azərbaycan arasında müxtəlif istiqamətlər, o cümlədən logistika və nəqliyyat, energetika, tikinti, kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı, agrotexnologiya, tibb və əczaçılıq, IT sənayesi və s. üzrə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu qeyd edib. Ötən il iki ölkə arasında ticarət dövriyyəsində müsbət tendensiyanın müşahidə edildiyini xatırladan Q.Pexoviak qarşılıqlı ticarətin daha da dinamik inkişaf edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

Azərbaycanda olduqları müddətdə müxtəlif görüşlərin keçiriləcəyinə, həmin görüşlərin də səmərəli olacağına əminliyini bildirən polşalı həmsədr martın əvvəlində Bakıda təşkil olunacaq Polşa-Azərbaycan işçi qrupunun görüşündən müsbət nəticələrin gözlənildiyini vurğulayıb.

İclasda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, komissiya üzvlərinin fikir və təklifləri dinlənilib, müzakirələr aparılıb.

Sonda "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclasının Protokolu" imzalanıb. Protokolu komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Polşa Respublikasının iqtisadi inkişaf və texnologiyalar nazirinin müavini, Dövlət katibi Qjeqoj Pexoviak imzalayıblar.

Həmçinin iclas çərçivəsində "Ələt Azad İqtisadi Zonası (AFEZ) ilə Waebrzych xüsusi iqtisadi zonası arasında Niyyət Razılaşması" imzalanıb. Sənədi Azərbaycan tərəfindən Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov, Polşa tərəfindən Valbruh Xüsusi İqtisadi Zonasının icraçı direktoru Mariuş Tomçak imzalayıblar.

Qeyd edək ki, ölkəmizə səfəri çərçivəsində Polşa Respublikasının iqtisadi inkişaf və texnologiyalar nazirinin müavini, Dövlət katibi Qjeqoj Pexoviakın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanın iqtisadi sahə üzrə bir sıra rəsmi şəxsləri ilə görüşləri də nəzərdə tutulub.

# İşğaldan azad olunan ərazilərdə tikinti işlərinin miqyası və dinamikası bu il daha da artacaq

## Ağdamda şəhərsalma məsələləri üzrə işçi qrupunun iclası keçirilib

**Ağdam şəhərindəki Konfrans Mərkəzində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun iclası keçirilib.**



Tədbirdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Nüsrət Süleymanov, Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, "Azərişıq", "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı", ANAMA, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və digər qurumların təmsilçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, iclasda Ağdamda aparılan tikinti-quruculuq işləri, o cümlədən rayonun ilk bərpa ediləcək kəndlərinin tikinti layihələri, minatəmizləmə, Ağdam şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi istiqamətində görülmüş işlər, bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi, su təminatı, eləcə də infrastruktur təminatı obyektləri üzrə görüləcək işlərin vəziyyəti müzakirə edilib.

İşçi qrupunun rəhbəri, Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov bildirib ki, Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" təsdiq olunub. Dövlət proqramının icrası üzrə Tədbirlər Planında hər bir yaşayış məntəqəsi üçün konkret hədəflər və tələblər qoyulub. İşçi qrupda təmsil edilən bütün qurumlar nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün səfərbər olunmalıdırlar.

Bu il işğaldan azad olunmuş bütün ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılacağını deyən İşçi qrupunun rəhbəri bildirib ki, Ağdam şəhərində və kəndlərdə ərazi planlaşdırma işləri artıq bitib. Tikinti layihələri də yekunlaşmaq mərhələsindədir və kəndlərin tikintisinə başlanılacaq.

İclasda çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində görülən işlərdən, nəzərdə tutulan layihələrdən danışıb. Bildirib ki, Tərtər rayonunun Talış kəndində tikinti işlərinin birinci mərhələsi yekunlaşmaq üzrədir, fevralın sonunadək bu iş başa çatdırılacaq və həmin ərazi 20 ailənin köçürülməsi üçün hazır olacaq. Ümumilikdə 2024-2026-cı illərdə Ağdam rayonunda 9690, Füzuli rayonu üzrə 5634, Tərtər rayonu üzrə 368, Xocavənd rayonu üzrə 307 olmaqla, cəmi 15 min 999 fərdi ev və mənzilin tikilməsi nəzərdə tutulur.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Nüsrət Süleymanov Əlaqələndirmə Qərargahının ötən iki ildən artıq dövr ərzində fəaliyyətindən, qarşıda duran işlərdən danışıb. Bildirib ki, 2023-cü ildə işğaldan azad olunan ərazilərdə həyata keçirilən tikinti-quruculuq işlərinin miqyası, dinamikası daha da artacaq.



Bu baxımdan praktikliyi təmin etmək məqsədilə İşçi qruplarının iclasları işğaldan azad olunmuş ərazilərdə keçirilməlidir. Məsələlər yerində müzakirə olunmalı, müvafiq ərazilərə, layihələrə baxışlar keçirilməlidir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrasında İşçi qruplarının xüsusi rolu olmalıdır.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov Ağdam şəhərində həyata keçirilən tikinti-quruculuq işləri barədə məlumat verib. Qeyd edib ki, istər minatəmizləmə, istərsə də baza infrastrukturun qurulması sahəsində vacib işlər görülüb. Avtomobil və dəmir yolları, elektrik xətlərinin çəkilməsi istiqamətində layihələr yekunlaşır. Həmçinin sosial-iqtisadi infrastrukturun qurulması istiqamətində işlər görülməkdədir. Ağdamın 1 nömrəli məktəbində, həmçinin tarixi-mədəni abidələrdə restavrasiya işləri aparılır. Eləcə də şəhərdaxili yaşayış məhəllələrinin konsept həllərinin işlənilməsi və işçi layihələrin işlənilməsi istiqamətində ciddi addımlar atılmaqdadır. Artıq cari ilin ortasından bir sıra yaşayış məhəllələrinin tikintisinə başlanması nəzərdə tutulub. Dövlət proqramında da göstərildiyi kimi, 2026-cı ilin sonunadək nəinki Ağdam şəhərinə, eləcə də ətraf kəndlərə insanların qayıtmasını təmin etmək qarşımıza məqsəd qoyulub. Ağdam şəhərinə və ətraf kəndlərə 42 min adamın köçürülməsi nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, Kəngərli, Sarcalı və Xıdırlı kəndlərinin 1-ci və 2-ci mərhələ üzrə işçi layihə-smeta sənədləri hazırlanaraq ekspertizaya təqdim edilib. Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq və Nəsilartırma Mərkəzinin konsepsiyası təsdiqlənib.

Ağdam şəhərinin layihələndirmə və tikinti işlərinə şəhər mərkəzini formalaşdıran tarixi mərkəzdən başlanılması qərara alınıb. Bu hissəyə Cümə məscidi, İşğal muzeyi, Pavilyon, Bayraq meydanı və Pənahəli xanın imarəti aiddir. Ağdam şəhərinin birinci yaşayış məhəlləsində 1139 mənzilin tikintisi və 4977 nəfərin köçürülməsi planlaşdırılır. İkinci yaşayış məhəlləsində 1261 mənzil tikiləcək və 5510 nəfər köçürüləcək. Hər iki faza üzrə işçi layihələrin hazırlanması üçün müqavilələr bağlanıb.

Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin sol tərəfində isə üçüncü və dördüncü yaşayış məhəlləsi yerləşəcək. Üçüncü yaşayış məhəlləsində 1239 mənzil inşa ediləcək və 5327 sakin köçürüləcək. Dördüncü yaşayış məhəlləsində isə 892 mənzil inşa ediləcək və 3835 nəfər köçürüləcək. Şəhərin şimalında salınacaq beşinci yaşayış məhəlləsində 1034 mənzil inşa ediləcək və 4446 sakinin ixtiyarına veriləcək.

Ağdamda əhalinin sosial həyatını təmin etmək məqsədilə 300 hektar ərazisi olan Meşə Parkının və Ağdamın Mərkəzi Parkının salınması prioritet məqsədlərdəndir. Bu məqsədlə artıq konsept həll üçün müsabiqə elan olunub.

Şəhərin infrastrukturu istiqamətində də işlər davam etməkdədir. 59 kilometr şəhərdaxili yolların və müvafiq kommunikasiya xətlərinin layihələri hazırlanaraq ekspertizaya təqdim olunub. Qarabağ İqtisadi rayonunun "yaşıl enerji" zonası elan olunması ilə əlaqədar olaraq Ağdam şəhərində mərkəzi istilik sisteminin yaradılması qərara alınıb. Ağdam şəhərinin Baş Planına əsasən inzibati ərazinin də layihələndirilməsi istiqamətində işlər başlanılıb.

İclasda Ağdam şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi, elektrik enerjisi, su təminatı, rayonda ilk bərpa ediləcək kəndlərin tikinti layihələri, Tərtərçay sağ sahil kanalının yenidən qurulması və sair məsələlər müzakirə edilib.

Sonra tədbir iştirakçıları Ağdam şəhərində tikilən yaşayış binaları və 1 nömrəli məktəbə baxış keçiriblər.

# Müdafiə naziri azad edilmiş ərazilərdə aparılan tikinti işləri ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir hərbi infrastrukturun yaradılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə tikintisi davam edən bir neçə hərbi obyektdə görülən işlərlə tanış olub.

Məruzə olunub ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi və digər infrastruktur obyektləri, eləcə də hərbi qulluqçular və onların ailə üzvləri üçün yaşayış binası tikilir. Bütün obyektlərin müasir avadanlıqlarla təchiz olunmasının nəzərdə tutulduğu qeyd edilib. Tikinti-quruculuq işlərinin gedişatını yoxlayan müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 15-də və 16-da Cəlilabad Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Rayon polis şöbəsində Neftçala, Biləsuvar, Cəbrayıl, Cəlilabad rayonlarından qəbula gələn 225 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində nazir bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 36-sı Vətən müharibəsi iştirakçısı, 4-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 154 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 16-da Salyan, Neftçala, Şirvan və Biləsuvar rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, islam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət komitəsinin aidiyyəti struktur bölməsinin rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov fevralın 16-da Sabirabadda Saatlı, İmişli, Beyləqan, Xocavənd və Sabirabad rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 21 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, veteran adı və vəsiqəsinin verilməsi, övladının xidmət yerinin müəyyənləşdirilməsi, qismən səfərbərliklə əlaqədar təşkilatların və vətəndaşların mülkiyyətində olan nəqliyyat vasitələrinə vurulmuş zərərin ödənilməsinə köməkliyin göstərilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Qəbul zamanı vətəndaşların müraciətlərinin həlli ilə bağlı mövcud qanunvericiliyin tələbləri izah edilib, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşların qaldırdığı və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

* * *

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov fevralın 16-da Tərtər və Ağdam rayonlarından olan vətəndaşlarla görüşüb.

Görüşdə qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Avropa Azərbaycana güvənir

## Yaxın gələcəkdə "qoca qitə"nin daha çox ölkəsi Azərbaycandan gələn enerji ilə isinəcək

*Əvvəli 1-ci səh.*

Azərbaycan Avropaya 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr təbii qaz ixrac edib. Bu il isə Avropaya ixrac həcminin 24,5 milyard kubmetr olması gözlənilir. Prezident İlham Əliyevin dediyi kimi, bu, o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur.

Eyni zamanda TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi də müzakirə mövzularıdır. Görünən odur ki, yeni çağırışlarla üzləşən Avropa Azərbaycana güvənir.

### Azərbaycanın Avropaya enerji ixracatında yeni mərhələ başlayacaq

Azərbaycan əldə olunmuş uğurlarla kifayətlənməyən, irəli baxan, müasir dövrün çağırışlarını nəzərə alan, bir sözlə, hər zaman öz gələcəyini düşünən dövlətdir. Ölkəmizdə "yaşıl" və bərpaolunan enerjiyə keçidin sürətli olması da bunu təsdiqləyir. Enerji keçidi ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəzlənməsini özündə ehtiva edir. Yaxın gələcəkdə qabaqcıl ölkələrdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadə daha çox artacaq.

Azərbaycan da enerji məsələləri baxımından regionun və Avropanın irəlidə olan dövlətləri sırasında yer alıb. Bu baxımdan respublikamızda da yeni və dayanıqlı enerji mənbələrinə, bu sırada "yaşıl enerji" istehsalına üstünlük verilməsi prioritet vəzifələrdən biri kimi müəyyən olunub. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu məsələ öz əksini tapıb. İşğaldan azad edilmiş ərazilərimiz də "yaşıl zona" kimi bərpa edilir.

Ölkəmizdəki iqlim şəraiti "yaşıl enerjinin" əldə edilməsi üçün geniş imkanlar yaradır. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışında Prezident İlham Əliyev ölkəmizin çox böyük "yaşıl enerji" potensialına malik olduğunu bildirərək deyib: "Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və



günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik. Hazırda 500 meqavatlıq günəş-elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır. Düşünürəm ki, bu potensial daha artıq olacaqdır".

Ölkəmizdə ötən ildən bərpaolunan enerjinin əldə olunması ilə bağlı layihələrin həyata keçirilməsinə başlanılıb. 2022-ci ilin yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkətinin inşa etdiyi 240 meqavat gücündə külək-elektrik stansiyasının, mart ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən tikilən 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlləri qoyulub.

Ümumiyyətlə, hazırda ümumi generasiya gücü 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılıb. Bir neçə gün əvvəl Prezident İlham Əliyev bildirib ki, son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilib. Bütün bunlar, eyni zamanda yeni günəş və külək elektrik stansiyalarının yaradılması Azərbaycana elektrik enerjisinin ixracı ilə bağlı yeni imkanlar yaradır. Başqa cür desək, tezliklə Azərbaycanın enerji ixracatında yeni mərhələ başlayacaq. Artıq "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında saziş də imzalanıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "ASAN xidmət" "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" mükafatına layiq görülüb




*Əvvəli 1-ci səh.*

Bildirilib ki, mükafat Dubay Əmirliyinin vəliəhd şahzadəsi Şeyx Həmdan bin Məhəmməd bin Rəşid Əl Maktum tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevə təqdim olunub.

"Qlobal Hökumət Mükəmməlliyi Mükafatı" Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin təşəbbüsü ilə Dünya Hökumət Sammiti çərçivəsində dünyada qabaqcıl hökumət təşəbbüslərinin qiymətləndirilməsi, dövlət xidmətlərinin göstərilməsi sahəsində innovasiyaları təşviq etməklə uğurlu təcrübələrin mükafatlandırılması məqsədilə təsis olunub.

Dünyada bu formatda və növdə təsis olunmuş ilk mükafat olan "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" mükafatı üzrə qalib olan Azərbaycan 80 namizəd ölkə arasından seçilib.

# Bir yumruq, bir ürək, bir can



# Mehriban Əliyevanın tapşırığı ilə...

## Daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb

**Türkiyədə dəhşətli zəlzələnin baş verdiyi bölgəyə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə fevralın 16-da səhər daha bir humanitar yardım daşıyan təyyarə yola düşüb.**





AZƏRTAC xəbər verir ki, 105 tonluq humanitar yardım aparan təyyarə ilə qardaş ölkəyə zəlzələdən zərər çəkmiş insanların soyuq qış aylarında ən çox ehtiyac duyduqları qızdırıcılar və çadırlar çatdırılacaq.

Qeyd edək ki, ötən gün də humanitar yardım təyyarəsi ilə bölgəyə çadırlar və qızdırıcılar yola salınmışdı.

Xatırladaq ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-dan etibarən fond Türkiyəyə humanitar yardım təyyarələri göndərir. Bu yardımlar çərçivəsində zəlzələdən zərər çəkmiş şəxslərə müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, axtarış-xilasetmə işlərinə dəstək məqsədilə ləvazimat və avadanlıqlar çatdırılıb.

# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir

## Sumqayıt






Türkiyə Respublikasında baş vermiş zəlzələ nəticəsində zərərçəkənlərə kömək məqsədilə fevralın 16-da Sumqayıt şəhərindən qardaş ölkəyə növbəti humanitar yardım yola salınıb. AZƏRTAC xəbər verir ki, şəhər icra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov bir neçə gün bundan əvvəl modul tipli 5 ədəd konteyner evin və 230 min manatlıq yardımın qardaş ölkəyə yola salındığını bildirib. O deyib ki, bugünkü yardıma isə hər birində 8-10 nəfərin müvəqqəti yaşaması üçün nəzərdə tutulan daha 4 konteyner ev, 175 min manat dəyərində 31 ton müxtəlif məhsul daxildir. Növbəti günlərdə modul tipli 14 konteyner evdən və 380 min manat dəyərində müxtəlif məhsullardan ibarət yardımın göndərilməsi nəzərdə tutulur.

## Tovuz





Tovuzun Əyyublu kəndi rayonun böyük yaşayış məntəqələrindən biridir. Son illər burada aparılan abadlıq və yenidənqurma işləri sakinlərin həyat tərzini xeyli yüksəltmişdir. Əsas peşələri əkinçilik və maldarlıq olan kənd sakinləri hər il öz halal əməkləri ilə bol kənd təsərrüfatı məhsulları istehsal edirlər.

Əyyublulular xeyriyyə işlərində də nümunə göstərirlər. Bu məqsədlə onlar "Vətən" adlı xeyriyyə cəmiyyəti və "Xeyriyyə" fondu yaratmışlar.

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələni Əyyublu sakinləri də ürək ağrısı ilə qarşıladılar. Uşaqdan böyüyə hamı təbii fəlakət nəticəsində zərər çəkmiş insanlara kömək etmək üçün xeyriyyə cəmiyyətlərinə vəsait ödəyərək qardaş türk xalqına maddi dəstək göstərdilər.

Kənd icra nümayəndəsi Məhərrəm Qasımov deyir ki, zəlzələ baş verən andan kənddə humanitar yardım məntəqəsi, həmçinin zəlzələ zamanı həlak olanların xatirəsini anmaq üçün kəndin mərkəzində guşə yaradılmışdır: "Kənd sakinləri hər gün bu guşəyə gələrək həlak olanların ruhuna dualar oxuyur, yaralananlara Allahdan şəfa diləyirlər. Bundan başqa, kəndimizin camaatı zəlzələdən ziyan çəkmiş qardaş- bacılarımız üçün çoxlu sayda isti paltar, yataq ləvazimatları, əlcəklər, eləcə də bəzi məişət avadanlıqları gətirərək, məntəqəyə təhvil verdilər. Belə ağır zamanda maddi dəstək göstərmək üçün pul vəsaiti də toplandı. Qısa vaxt ərzində "Vətən" xeyriyyə cəmiyyətinə 9100, Əyyublu "Xeyriyyə" fonduna isə 1320 manat pul yığıldı və həmin vəsait Türkiyədə zəlzələdən zərər çəkmiş insanlar üçün açılmış bank hesabına köçürüldü. Humanitar yardım mərkəzinə toplanmış iki maşın məişət əşyaları isə Türkiyəyə göndərilməsi üçün qardaş ölkənin Gəncədəki Baş konsulluğuna təhvil verildi".

Kənd ağsaqqalları Mübariz Hüseynov və Abbas Abbasov bütün bu işlərə özləri nəzarət edirlər. Söhbət zamanı dedilər ki, bu, bizim qardaşlıq borcumuzdur. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Ona görə də həm xoş gündə, həm də çətin gündə bir-birimizə dayaq olmalıyıq.

## Samux







Samux rayonunun sakinləri də Türkiyədə zəlzələdən ziyan çəkənlərə humanitar yardım kampaniyasına qoşularaq bu ağır günlərdə qardaş türk xalqının yanında olduqlarını nümayiş etdirirlər.

Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər görmüş insanlara yardım məqsədilə Samux rayonunda da humanitar aksiyalara başlanmışdır. Fəlakətin baş verdiyi ilk gündən yardım toplamaq aksiyası davam edir. İsti paltar, yataq ləvazimatları, eləcə də gec xarab olan qidalarla yüklənmiş bir yük maşını artıq Türkiyəyə yola salınmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# 115 milyardlıq dəstək

## Türkiyə Cümhuriyyəti tarixinin ən böyük yardım kampaniyasında Azərbaycan vətəndaşları da fəal iştirak etdilər

**Ötən gün "Türkiyə - tək ürək" oldu, qəlbi yalnız zəlzələdən zərər çəkən milyonlarla insana dayaq-dəstək olmaq üçün atdı.**



Azərbaycan Televiziyası, Türkiyə, eləcə də Şimali Kiprin televiziya və radio kanallarının iştirakı ilə xeyriyyə məqsədilə keçirilən ortaq yayımda Cümhuriyyət tarixinin ən böyük yardım kampaniyası baş tutdu. Dünyanın hər yerindən iş adamları, sənətçilər, siyasətçilər, QHT rəsmiləri və sadə vətəndaşların qatıldığı "Türkiyə - tək ürək" kampaniyasına Azərbaycan vətəndaşları da fəal şəkildə dəstək verdilər. Xalqımız hər zaman olduğu kimi, bu mühüm məqamda da türkiyəli qardaşları ilə həmrəy olduğunu nümayiş etdirdi.

### "Türkiyə - tək ürək" kampaniyasına rekord məbləğdə ianə edildi

Fevralın 15-də axşam saatlarında Türkiyə və dünyadan 213 televiziya və 562 radionun həyata keçirdiyi "Türkiyə - tək ürək" kampaniyasının məqsədi Türkiyənin 10 vilayətində - Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Adana, Osmaniye, Malatya, Diyarbəkir, Şanlıurfa və Kilis vilayətlərində baş verən dəhşətli zəlzələdən zərərçəkənlər üçün maddi yardım toplamaq idi. Kampaniya nəticəsində rekord məbləğdə, 115 milyard 146 milyon 528 min lirə (10,4 milyard manat, yaxud 6,1 milyard ABŞ dolları) ianə toplandı, vətəndaşlar tərəfindən 9 milyondan çox SMS göndərildi. Azərbaycan vətəndaşları, iş adamları da bu kampaniyaya qoşularaq yardımlarını etdilər.

Bildirək ki, yığılan vəsait AFAD-ın və Qızıl Aypara Cəmiyyətinin hesabına köçürüldü.

Telefon zəngi ilə canlı yayıma bağlanan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə - tək ürək" kampaniyasında toplanacaqlarla birlikdə ölkə daxilindən, eləcə də xaricdən AFAD hesabına daxil olacaq hər qəpiyin zəlzələ qurbanları üçün istifadə olunacağını bəyan etdi.

### Həmrəyliyin nümayişi

Türkiyədə baş verən dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması üçün təşkil edilən maddi yardım kampaniyası həm də türk millətinin həmrəyliyi, bir-birinə dayaq olmalarının misilsiz nümayişi oldu. Müxtəlif vəzifə mənsubları, hansı sosial statusa malik olmasına baxmayaraq hər kəs istəyirdi ki, məşhur bir türk deyimində olduğu kimi, onun da "şorbada duzu olsun", onun da bu yardıma köməyi dəysin...

Buna görədir ki, "Türkiyə - tək ürək" kampaniyasının yardım çağırışlarına yeddidən yetmişə hər kəs cani-könüldən hay verdi. Vəzifəli şəxslər, siyasətçilər, iş dünyasının adamları, mədəniyyət, idman xadimləri, sadə vətəndaşlar - hər kəs öz gücü yetən, bağrından qopan payı ürəklə ianə etdi...

Yaşlılar pensiyalarını, gənclər təhsil xərclərini, uşaqlar kiçik daxıllarına topladıqları pulları bağışladılar...

### "Paylaşdığınız sizindir, yığdığınız deyil"

Yardım kampaniyasının sürdüyü 7 saatlıq canlı yayım ərzində çox duyğulu anlar yaşandı, gözyaşlarına boğulduğumuz kövrək məqamlar oldu...

Hər kəs etdiyi maddi yardımla, fərqi yoxdur, bu, milyonlar olsun, yaxud 50 lirə, tələsdi ki, zəlzələdən zərərçəkən bir insana ümid olsun, bir uşağın gözyaşını silsin.

11 yaşlı Rumeysa İncədağ anasının doğulduğu gündən onun üçün yığdığı 100 min lirəni zəlzələ qurbanlarının yaralarını sağaltmaq üçün bağışladı.

Emir və Enes Yılmaz qardaşlarının hər biri məktəb xərcliklərindən 500 lirə bağışladılar.

Adını açıqlamayan bir vətəndaş üçüncü övladı üçün dövlətin ödədiyi analıq pulunu ianə etdi.

Kırıkkaleli fermer İbrahim Karaçalı dövlətdən dizel və gübrə dəstəyi olaraq aldığı təxminən 89 min lirəni təbii fəlakətdən zərər çəkənlərə bağışladığını açıqladı.

Konyalı fermer Orhan Koçak 40 min lirəlik bütün əmanətini bağışladı.

Çoban Şaban Us "Paylaşdığınız sizindir, yığdığınız deyil" deyərək dərin anlamlı bir paylaşım edərək qoçunu satdığını və 5 min lirə hədiyyə etdiyini bildirdi.

Təbrizdən bir qrup şəxs zəng edərək yardım etmək istəklərini yetirdi...

Sadə vətəndaşların belə bu kampaniyada necə ürəkdən iştirak etməsi ilə bağlı gətirdiyimiz bu nümunələr milyonlarladır...

Və heç şübhəsiz, bütün bu həmrəyliyin, yardımlaşmanın təməlində Türkiyə sevgisi durur.

### İnsanlığı yaşatmaq naminə

Bəli, "Türkiyə - tək ürək" yardım kampaniyası zamanı da xalqlarımızın necə həmrəylik nümayiş etdirdiyinin şahidi olub bir daha əmin olduq ki, həqiqətən də xeyirxahlıq, yardımlaşmaq dünyanın harasında yaşamasından asılı olmayaraq türk millətinin genetik yaddaşında formalaşmış mənəvi dəyərdir. Tarixi köklərindən rişələnərək bu günə uzanan insanlığı yaşatmaq, həyatı yaşatmaq kimi bəşəri dəyərlərin təcəssümüdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Təbii fəlakət saymazlığı bağışlamır

**BMT-nin məlumatına görə, XXI əsrin ilk 20 ilində Yer kürəsində zəlzələlərin sayı 2 dəfə artmışdır. Əvvəl bu cür fəlakətlər yalnız iqlim dəyişikliyi və qlobal istiliklərlə izah edilirdisə, indi səbəblərin siyahısı genişlənməkdədir. Özü də bütün versiyalar inandırıcıdır və onların heç birindən tam imtina etmək mümkün deyil.**

Məsələn, astronomlar belə qənaətə gəlirlər ki, Günəş sistemindəki bütün planetlərin nüvələrində anomal hərəkətlər baş verir - onlar yerlərini və sürətlərini dəyişirlər. Bunun nəticəsində isə biz təbii fəlakətlərin artmasının şahidi oluruq. Bu sırada Günəş sistemindəki bütün planetlərlə yanaşı, Yer kürəsi də istisna deyil. Ona görə Günəş sistemində baş verən bütün dəyişiklikləri Yer kürəsində də müşahidə etmək mümkündür.

Yəqin elə bu səbəbdəndir ki, son 50 ildə planetimizdə baş verən təbii fəlakətlərin sayı 5 dəfə artmışdır. BMT-nin Dünya Meteoroloji Təşkilatının hesabatında göstərilir ki, təkcə 2018-ci ildə baş verən təbii fəlakətlərin sayı 108 milyon insanı beynəlxalq humanitar yardım üçün müraciət etmək məcburiyyətində qoymuşdur. Proqnozlar da ürəkaçan deyil - 2030-cu ilə kimi bütün növ təbii fəlakətlərin sayı yenə iki dəfə arta bilər. Vəziyyəti mürəkkəbləşdirən həm də odur ki, planetin hər 3 sakinindən biri həmin fəlakətlər barədə əvvəlcədən xəbər verə bilən sistemlərlə yetərincə əhatə olunmamışdır.

BMT-nin Risklərin Azaldılması İdarəsi bəyan edir ki, 2000-2019-cu illər arasında 7,3 mindən çox təbii fəlakət baş vermiş və bundan 4,2 milyarddan çox insan ziyan çəkmişdir. Dünya iqtisadiyyatına dəyən ziyanın dəyəri isə təxminən 3 trilyon dollara yaxınlaşmışdır. Məruzədə həmçinin bildirilir ki, təbii fəlakətlərin sayının artmasına iqlim dəyişiklikləri, xüsusən isti hava şəraiti də səbəb olur. O üzdən BMT bütün dövlətləri iqlim təhlükələrini aradan qaldırmaq üçün yetərincə hərəkət etməməkdə ittiham edərək hamını daha fəal olmağa çağırır.

Lakin təbii fəlakətlərin iqlim dəyişikliyindən asılı olmadığını iddia edən alimlər də var. Onlar belə bir fərziyyə irəli sürürlər ki, Günəş sistemində 12 min ildənbir qlobal fəlakətlər dövrü baş verir.

Başqa versiyalar da var. Onlardan birində qeyd olunur ki, Yer kürəsində insanlar qəddarlaşdıqca, başqa sözlə, müharibələrin sayı artdıqca, bəşəri yaşam qaydaları pozulduqca bütün vəhşiliklər suların yaddaşına həkk olunur. Zülm ərşə qalxanda sular coşaraq insanlara divan tutmağı qərara alır və dünya sulara qərq olur.

Daha bir versiya isə bizim müqəddəs kitabımzda qiyamət gününün əlamətləri kimi ətraflı şərh edilir. Quran ayələrində göstərilir ki, Yer kürəsində qiyamətin bütün əlamətləri baş verəndən sonra həyat sönəcək. Müxtəlif ölkələrdə din xadimlərinin deməyinə görə, qiyamətin kiçik əlamətləri artıq baş verməkdədir.

Amma bütün hallarda əsrimizin ilk 20 ilində iqlim dəyişikliyi ilə bağlı 6681 fəlakət baş vermişdir. Bu da ötən əsrin son 20 ilində baş verən 3656 fəlakətdən xeyli artıqdır. 20 il ərzində nəhəng daşqınların sayı iki dəfə artmışdır. Son 20 ildə Asiya 3068 təbii fəlakətdən ziyan çəkmişdir. Bu rəqəm Amerikada 1756, Afrikada isə 1192 olmuşdur.

XXI əsrin ilk 20 ilində baş verən zəlzələr də artmaqdadır. Türkiyədə baş verən sonuncu dağıdıcı zəlzələ ən acınacaqlısıdır. 7,7 bal gücündəki zəlzələ Türkiyənin böyük bir regionunu yerləyeksən etmişdir.

Təskinlik üçün xatırlatmırıq. Bu əsrin əvvəlində - 2004-cü ildə İndoneziyada baş vermiş zəlzələdə 300 minə yaxın adam ölmüşdü. Hind okeanında 9,1-9,3 bal gücündəki zəlzələ nəticəsində 10 metr hündürlüyündə sunami 14 ölkədə bir o qədər insanın həyatına son qoymuşdu. Dağıntılar Tailanda 5 milyard, İndoneziyaya 4,5 milyard, Hindistana 1,6 milyard, Maldiv adalarına 1,3 milyard ABŞ dolları dəyərində iqtisadi ziyan vurmuşdu. Amma bunlar da hələ hamısı deyil. Haitidə 2010-cu ildə baş verən zəlzələdə də minlərlə insan həlak olmuşdu. 2008-ci ildə Çində baş verən 7,9 bal gücündə zəlzələ nəticəsində 90 minə yaxın insan həlak olmuşdu. 2005-ci ildə Pakistanda baş verən 7,6 bal gücündə zəlzələdə isə 87 mindən artıq adam ölmüşdü. Bundan əvvəl İran və Yaponiyada yerin silkələnməsi də qurbansız ötüşməmişdir.

Amma insanlar üçün ən vacibi hər hansı təbii fəlakətin baş verməsi yox, onun fəsadlarının minimuma endirilməsi və ya qarşısının alınmasıdır. Bu isə özümüzdən asılıdır. Əbəs yerə demirlər ki, insanları məhv edən təbii fəlakətlər deyil, onların təbii fəlakətlərə biganə münasibətləridir. Əgər seysmik ərazidə başımızın üstünə dam tikərkən zəlzələni, çay sahilində məskən salarkən seli, odla rəftarda yanğını heçə sayırıqsa, yaxud maraqlarımızı dağıdıcı və öldürücü silahlar gücünə təmin ediriksə, buna təbiət neyləsin?!

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

**Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli-siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükünü daşıyan fenomendir. Müstəqil Azərbaycan dövlətinin hər bir atributu Heydər Əliyevin adı, onun yorulmaz fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin rəhbərliyi ilə xalqımız sosial-iqtisadi tərəqqi, milli oyanış, mədəni intibah, azadlıq hərəkatı mərhələsindən keçərək müstəqillik əldə etmiş, suverenliyini və milli birliyini təmin edərək onu qorumaq imkanlarına malik olmuşdur.**



# Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı

Bu böyük insanın bütün fəaliyyəti, bu fəaliyyətin hər səhifəsi, hər mərhələsi dövr və zəmanəmizi ifadə edən əzəmətli bir abidədir. Onun keçdiyi yol isə zəngin bir həyat ensiklopediyasıdır. Heydər Əliyev təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyil, bütöv bir xalqın tarixinin yüksək zirvəsindədir.

Həyatı daim xalq və haqq yolunda mübarizədə keçən Heydər Əliyev məhz fitri istedadı, yüksək intellekti, fenomenal yaddaşı, rəhbərlik məharəti, cəsarəti, mərdliyi, güclü iradəsi, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçilik təcrübəsi ilə bütün çətinliklərin öhdəsindən ləyaqətlə gəlmiş, Azərbaycan dövlətini məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizi iqtisadi tənəzzüldən inkişaf və tərəqqi yoluna çıxarmışdır.

Azərbaycan xalqının tarixən formalaşmış ənənələri əsasında milli dövlətçilik modelinin yaranması, möhkəmləndirilməsi və ən başlıcası, qorunub saxlanılması yalnız XX əsrin sonlarına doğru - Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə gerçəkləşmişdir. Bu dövrdən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən tarixi şəxsiyyətin xalq təsərrüfatının bütün sahələrində, eləcə də elm və təhsildə apardığı nəhəng islahatlar gələcək uğurlar üçün geniş zəmin və şərait yaratmışdır. Bu gün biz fəxrlə, böyük qürur hissi ilə deyirik ki, memarı Heydər Əliyevin olduğu milli dövlətçilik bizim ən böyük sərvətimizdir. Xalqımızın əbədi lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyev təkcə XX əsrin deyil, ümumiyyətlə, Azərbaycan tarixinin yetirdiyi ən böyük dahi şəxsiyyətdir.

Böyük strateq Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızın inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq Azərbaycanın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmışdır. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda Ulu Öndərin respublikaya rəhbərliyinin ilk dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir. Bu baxımdan Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin islahatlar yolu ilə Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması siyasəti hələ Sovet İttifaqı zamanında - 1969-cu ildən Heydər Əliyevin respublikamıza rəhbərliyi ilə başlanan böyük tarixi missiyanın əsas istiqamətlərindən idi. O zaman Azərbaycan Sovet İttifaqının tərkibində olsa da, Ümummilli Liderin milli məfkurəyə əsaslanan siyasəti sayəsində sürətli inkişaf yolu keçmiş, bütün sahələr üzrə iqtisadi quruculuğa və yüksək göstəricilərə nail olunmuşdur. Heydər Əliyev gələcəyə hesablanmış müdrik siyasət yürüdərək Sovet İttifaqı tərkibində müxtəlif əngəllərə baxmayaraq, milli iqtisadiyyatımızı formalaşdırmağa, inkişaf etdirməyə və ittifaq tərkibində ən öncül yerlərdən birinə yüksəltməyə, güclü iqtisadi baza və infrastruktur, eləcə də bu sahədə güclü milli kadr potensialı yaratmağa nail olmuşdur.

Ulu Öndər bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini onun iqtisadi azadlığı şərtləndirir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də Heydər Əliyevin respublikaya ilk rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir. Ulu Öndər ölkənin gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürmüş, strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikamızda inşasına nail olmuşdur. Böyük strateqin həmin illərdə Bakı Məişət Kondisionerləri və Dərin Özüllər zavodlarının tikintisi ilə bağlı nümayiş etdirdiyi qətiyyət, prinsipiallıq bunu bir daha təsdiqləyir.

Ulu Öndərin məqsədyönlü iqtisadi siyasəti xammal və kənd təsərrüfatı respublikası olan Azərbaycanın qabaqcıl sənaye regionuna çevrilməsi, aqrar sahədə irəliləyişlərə və yüksək göstəricilərə nail olunması, yeni sənaye müəssisələrinin və istehsal sahələrinin yaradılması, qabaqcıl texnologiyaların tətbiqi və s. amillərə görə ittifaq miqyasında uğurlarla fərqlənməsi ilə nəticələndi.

XX əsrin 70-ci illərinin əvvəllərinədək Azərbaycanın iqtisadi və sosial inkişafında həll olunmamış çoxlu problemlər mövcud olmuş, respublikanın malik olduğu iqtisadi, elmi-texniki və humanitar potensialdan tam dolğun və səmərəli şəkildə istifadə edilməmiş, bu isə istər-istəməz sosial-iqtisadi inkişafın ümumi səviyyəsinin ovaxtkı orta ittifaq göstəricilərindən aşağı olması ilə nəticələnmişdir. Ağır iqtisadi və sosial şəraitdə respublikada rəhbərliyə gələn Heydər Əliyev həmin vaxt üçün mövcud olan vəziyyəti uzaqgörənliklə düzgün qiymətləndirmiş, iqtisadiyyatda, sosial-mədəni və mənəvi sahələrdə əsaslı dəyişikliklərin həyata keçirilməsini, iqtisadiyyatın təşkili və inkişafı sahəsində dönüş yaradılmasını başlıca vəzifə kimi müəyyənləşdirərək çox qısa zaman kəsiyində bütün əsas göstəricilər üzrə Azərbaycanın keçmiş SSRİ-də öncül mövqelərə çıxmasını təmin etmişdir. Bu uğurun təzahürü kimi iqtisadiyyatın maddi-texniki bazasının və maliyyə təminatının möhkəmləndirilməsi və buna rəvac verən iqtisadi proseslərin dinamik inkişafının təmin edilməsi son dərəcə gərgin və ardıcıl işin, düzgün və səmərəli idarəetmənin nəticəsi kimi meydana çıxmışdır.

Maddi istehsalın bütün sahələrində, xüsusən sənayedə, kənd təsərrüfatında, tikintidə aparılan dərin struktur-keyfiyyət dəyişiklikləri iqtisadiyyatda nəzərəçarpacaq yüksəlişin əldə olunmasına zəmin yaratmışdır. Nəticədə 1970-ci illə müqayisədə 1982-ci ildə məcmu ictimai məhsul 2,3, milli gəlir istehsalı 2,3, bütün sənaye məhsulları istehsalı 2,2, kənd təsərrüfatı məhsulları istehsalı 2,2, o cümlədən bitkiçilik məhsulları istehsalı 2,6, heyvandarlıq məhsulları istehsalı 1,6, əsaslı vəsait qoyuluşu 1,8, xalq təsərrüfatı üzrə mənfəət, müqayisəli qiymətlərlə 2,7, adambaşına real gəlir 1,5, fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 1,4 dəfə artmışdır. Bu dövr ərzində adambaşına milli gəlirin artım sürəti 1961-1970-ci illərdəkinə nisbətən 2,7 dəfə, sosial sığorta və sosial təminat 2 dəfədən də çox, pərakəndə ticarət dövriyyəsi 79 faiz, mənzil tikintisinin həcmi şəhər yerlərində 13,4 milyon kvadratmetr artmış, 220-dən çox yeni sənaye müəssisəsi, kənd yerlərində ümumi sahəsi 4,8 milyon kvadratmetr olan yaşayış evləri, çoxsaylı məktəb, məktəbəqədər uşaq tərbiyə müəssisəsi tikilib istifadəyə verilmişdir.

1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sahələr, 1971-1985-ci illərdə isə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdır. Həmin illərdə yaradılmış modern neft-kimya sənayesi Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynamışdır. Azərbaycan neft məhsulları və avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, xalça və digər istehsal sahələri üzrə Sovet İttifaqında aparıcı respublikalardan biri olmuşdur. Respublikada infrastrukturun yenilənməsinə böyük diqqət yetirən Ümummilli Liderin rəhbərliyi illərində paytaxt və regionlarda yüzlərlə yaşayış binası, mehmanxana, iqtisadi inkişafda önəm kəsb edən iri istehsal kompleksləri, su anbarları, müasir yollar tikilmiş, yaşıllıq zonaları, istirahət ocaqları yaradılmışdır. Bütün bunlar - həyata keçirilən quruculuq siyasəti, yaradılmış infrastruktur, yeni sənaye sahələri, formalaşmış böyük iqtisadi potensial Azərbaycanın müstəqil dövlət kimi gələcək inkişafında mühüm rol oynamışdır.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi rəhbərliyə qayıdan Heydər Əliyev yeni tarixi şəraitdə iki mühüm vəzifənin - müstəqil dövlətimizin məhv olmaq təhlükəsinin aradan qaldırılması, yəni dövlət müstəqilliyimizin qorunub saxlanması və demokratik dövlət quruculuğunun həyata keçirilməsi vəzifələrinin həlli istiqamətində işlərə başladı. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində tarixən qısa zaman kəsiyində dövlət müstəqilliyimizin dönməz xarakter alması təmin olundu, demokratik hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu. Sosial-siyasi vəziyyətin ağır olmasına baxmayaraq, Prezident Heydər Əliyev tərəfindən nəticəsi sonralar bilinəcək tədbirlər görülməyə başlandı. Ulu Öndər Heydər Əliyevin Vətəni sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik" sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi. "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram" kəlamı xalqın yaddaşında əbədi həkk olundu. Azərbaycan xalqının özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdiyi dövrdə - XX əsrin son onilliyində isə Ümummilli Lideri inkişaf etmiş sənaye ölkəsi deyil, siyasi cəhətdən qarışıq, iqtisadi cəhətdən çökmüş, hərbi cəhətdən məğlub bir ölkə, işğal xəbərlərindən və daxili çəkişmələrdən yorulan xalq gözləyirdi. Amma bunlar onu çəkindirmədi və vəziyyəti dəyişmək üçün doğru hesab etdiyi hər addımda qətiyyət nümayiş etdirdi.

Müstəqilliyin ilk illərində Azərbaycanın qarşısında duran ən mühüm və strateji əhəmiyyətli vəzifələrdən biri iqtisadi tənəzzülün və böhran meyillərin qarşısını almaq, maliyyə sabitliyini təmin edərək əhalinin sosial rifahını yaxşılaşdırmaq idi. Buna isə yalnız uzaqgörən, zəngin təcrübəyə, çoxtərəfli biliyə və vətənpərvər, öz fəaliyyətində milli maraqlara söykənən liderin siyasəti sayəsində nail olmaq mümkün idi. Məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl iqtisadi strategiya qarşıya qoyulan hədəflərə çatmağa, sosial-iqtisadi dirçəlişə nail olmağa imkan verdi. Bildiyimiz kimi, hər dövlətin sosial siyasəti onun iqtisadiyyatının inkişafı və dövlət idarəçiliyinin ədalətliliyi ilə qiymətləndirilir. Bu mənada Heydər Əliyev ölkəmizdə humanist və ədalətli sosial siyasətin yürüdülməsi üçün ən qısa zamanda iqtisadi sahədə sabit dövlət siyasəti formalaşdırmağa nail oldu. Bu haqda onun özü demişdir: "Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Məqsədimiz güclü iqtisadiyyatımızı qurmaqla, ədalətli və humanist sosial siyasətə nail olmaqdır. Məhz bu, dövlət siyasətimizin əsas prinsipləridir".

Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi ilə müstəqil Azərbaycanın iqtisadi tərəqqisinin dayaq sütunlarını müəyyən edən milli inkişaf doktrinası hazırlandı. Bu mükəmməl inkişaf modelinin reallaşdırılması dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına, kompleks islahatların həyata keçirilməsinə möhkəm əsas yaratdı.

Hələ 1994-cü il iyunun 21-də respublika iqtisadiyyatının və digər sahələrin cari məsələlərinə həsr olunmuş müşavirədəki yekun nitqində Ulu Öndər demişdi: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir".

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın neft sahəsində qazandığı uğurdur. Azərbaycanın yeni neft strategiyasının zirvə sənədi - "Əsrin müqaviləsi" 1994-cü il sentyabrın 20-də imzalanmışdır. Bu müqavilənin hər cəhətdən əsaslandırılmış, milli və dövlətçilik maraqlarımıza tam uyğun bir tərzdə işlənib hazırlanmasında İlham Əliyevin də əməyi az olmamışdır. Xarici tərəfdaşlarla aparılmış çoxsaylı danışıqlar, məsləhətləşmə və görüşlər zamanı İlham Əliyevin qətiyyəti və səriştəliliyi Azərbaycan dövlətinin maraqlarını mövcud geosiyasi reallıqlarla uzlaşdırmaqla gələcək konsorsiumun tərkibini, hasilatın pay bölgüsündə tərəflərin iştirak payını qəti şəkildə müəyyənləşdirməyə imkan yaratmışdır.

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır: a) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsilə ölkə iqtisadiyyatını inkişaf etdirmək; b) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialın bütün Azərbaycan xalqının sərvəti kimi respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək. Müstəqillik şəraitində heç kimə ümid olmadan iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, özü də təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt sayan Heydər Əliyev deyirdi: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın".

Heydər Əliyevin birbaşa göstərişi ilə müvafiq dövlət orqanları tərəfindən təcili olaraq hökumətin iqtisadi proqramı işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdır. 1995-1996-cı illər ərzində makroiqtisadi sabitliyin təmin olunması və iqtisadiyyatda struktur dəyişikliklərinin aparılması tədbirlərini nəzərdə tutan iki hökumət proqramı uğurla icra olunmuşdur. Başqa sözlə, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və məqsədyönlü tədbirlər əvvəllər baş alıb gedən özbaşınalıqlara və xaosa son qoymuş, sonra ictimai-siyasi sabitlik təmin edilmiş, ölkənin hərtərəfli sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi sistemə inteqrasiyası üçün əlverişli şərait yaradılmışdır. 1995-ci ildən başlayaraq ardıcıl surətdə aparılan düşünülmüş, bir sıra məqamlarda isə hətta radikal xarakterli islahatlar nəticəsində iqtisadiyyatın inkişafında ciddi irəliləyiş əldə edilmiş, əksər sahələrdə, xüsusilə makroiqtisadi göstəricilərin artımında yüksək nəticələrə nail olunmuş, bazar münasibətlərinin dərinləşməsində və iqtisadi potensialın formalaşmasında həlledici rol oynayan azad sahibkarlığın təməli qoyulmuş və özəl bölmənin, vətəndaş təşəbbüskarlığının inkişafında əhəmiyyətli uğurlar qazanılmışdır. Həmçinin əhalinin rifah halının yaxşılaşdırılması, cəmiyyətin sosial müdafiəyə ehtiyacı olan üzvlərinə dövlət qayğısının artırılması istiqamətində mühüm addımlar atılmışdır. Bütün bunlar mövcud imkanlardan daha səmərəli istifadə etməklə Azərbaycanın iqtisadi cəhətdən güclü dövlətə çevrilməsi, onun dünya təsərrüfat sisteminə inteqrasiyası və bu sistemdə özünə layiq olan yeri tutması, ölkədə sosial problemlərin həlli və əhalinin güzəranının daha da yaxşılaşdırılması üçün etibarlı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu xeyli artırmışdır. Artıq qlobal enerji layihələrinin mərkəzinə çevrilmiş Azərbaycan təkcə özünün deyil, həm də Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Böyük tarixi əhəmiyyət kəsb edən, transmilli infrastruktur layihələri olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmiryolu dövlətimizin iqtisadi qüdrətini artırmış, geosiyasi mövqeyini xeyli möhkəmləndirmişdir.

Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir. Fəaliyyətə başladığı ilk gündən xalq qarşısında görəcəyi işlərin prioritetlərini açıqlayan cənab İlham Əliyev "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləmiş və vədini real işlərlə doğrultmuşdur. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı dövrün tələblərinə uyğun daha da zənginləşdirən Prezident İlham Əliyev inkişafın Azərbaycan modelini yaratmışdır. Bu model beynəlxalq aləmdə böyük maraq doğurur və əksər ölkələr üçün örnəyə çevrilir. Hamının marağına səbəb olan inkişafın, dövlətçiliyin Azərbaycan modeli özündə bir sıra mühüm prioritetləri birləşdirir. Bu prioritetlər ictimai-siyasi sabitlik və təhlükəsizlik, balanslaşdırılmış xarici və daxili siyasət, hüquqi dövlət quruculuğu, çevik idarəetmə mexanizminin tətbiqi və təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafıdır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Regionda bütün transmilli layihələrin mərkəzində məhz Azərbaycan dayanır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əməlləri tarix ötdükcə daha möhtəşəm görünür və daha dərindən dərk olunur. Prezident İlham Əliyev: "Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,***
***YAP Veteranlar Şurasının üzvü,***
***iqtisad elmləri doktoru, professor***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Aksiya iştirakçılarının qətiyyəti separatçılarda təşviş yaradıb

**Laçın-Xankəndi avtomobil yoluna toplaşan ekoloji fəallar üçüncü aydır ki, Qarabağdakı faydalı qazıntı, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildirirlər. "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" və başqa şüarlarla ermənilər tərəfindən Qarabağ ərazisində yerüstü və yeraltı təbii sərvətlərimizin talan edilməsinin qarşısını almağa çalışırlar.**



Artıq beynəlxalq ictimaiyyətə də məlumdur ki, Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən humanitar məqsədlə və mülki əhali üçün hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir. Yolun hər iki istiqamətində Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər maneəsiz hərəkət edir.

Heç də siyasi xarakter daşımayan bu aksiya humanitar məqsədlərə xidmət edir. Belə olan halda Ermənistan tərəfinin, xüsusən də özünü separatçıların "baş naziri" elan edən biznesmen milyarder Ruben Vardanyanın mətbuata, xarici jurnalistlərə müsahibəsində, eləcə də Moskvaya gizli səfərində etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı sərsəmləmələri reallıqdan uzaqdır.

Qarabağ separatçılarının qondarma "dövlət naziri" postunu tutan Ruben Vardanyanın Xankəndiyə qayıtması ilə bağlı məlumatlar Ermənistanda gündəm olub. Hətta "Hraparak"ın məlumatına görə, Vardanyan fevralın 13-də tabeliyindəki "rəhbər heyətin" iştirakı ilə məsləhətləşmələr keçirib. Moskvadan "mükəmməl təlimatlarla" qayıdan R.Vardanyan mövcud vəziyyəti açıqlayaraq görüləcək çox işin olduğunu söyləyib.

Onun separatçıların rəhbər heyətində təmsil olunan şəxslərə müxtəlif tapşırıqlar verdiyi də deyilir. Qeyd edək ki, Ermənistan KİV ötən həftə Ruben Vardanyanın Moskvaya getdiyini yazmışdı. Həmin məlumatlarda bildirilirdi ki, Rusiyanın Qarabağla bağlı mövqeyini aydınlaşdırmaq üçün əvvəlcə Qarabağ separatçılarının başçısı Araik Arutyunyan, ardınca isə Ruben Vardanyan Moskvaya yollanıb. Mətbuat bu iki şəxsin son vaxtlar yola getmədiyi və aralarındakı gərginliyin dərinləşdiyini də yazır. Ehtimal olunur ki, Moskva onlardan hansı ilə işləyəcəyinə tezliklə aydınlıq gətirəcək.

Siyasi ekspert Elşad Həsənov bildirib ki, Ruben Vardanyan fiqurunu vurub Qarabağ lövhəsindən tamamilə kənarlaşdırmaq üçün unikal şans yaranıb. Ekspertin gəldiyi qənaətə görə, Ruben Vardanyanın Xankəndidən Moskvaya getməsi Bakıya Moskva ilə danışıqlar aparmaq üçün imkan yaradıb: "Fikrimcə, Azərbaycan Rusiya ilə razılığa gəlib Vardanyan layihəsinə son qoyacaq".

Nüfuzlu beynəlxalq təşkilatlar, siyasi ekspertlər və analitiklər, qeyri-hökumət təşkilatının nümayəndələri erməni separatçılarının hərəkətini hüquqi baxımdan tamamilə əsassız sayırlar. Çünki bütün dünyaya məlumdur ki, Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 il ərzində Ermənistan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeraltı-yerüstü sərvətlərini barbarcasına talayıb, xarici şirkətləri qanunsuz şəkildə bölgəyə cəlb edib. Bu şirkətlər həm Ermənistana, həm də digər xarici ölkələrə məxsusdur. Xatırladaq ki, Azərbaycan Baş Prokurorluğunun hələ 2018-ci ildə apardığı araşdırmalara görə, Ermənistanda və digər ölkələrdə hüquqi qeydiyyatdan keçən "Vallex Group", "Base Metals", ACP, Lerna Metalurgiayi İnstitute, "Teghout" və digər şirkətlər, o cümlədən Ermənistandan olan fiziki şəxslər qızıl hasilatı biznesinin təşkilində iştirak ediblər.

Erməni jurnalist Vaqram Ağacanyanın araşdırmasında da bu həqiqətlər öz əksini tapıb. Qarabağa, xüsusən də Laçın-Xankəndi yolunda ekofəalların tələblərini canlı müşahidə etməyə gələnlər də etiraf edirlər ki, erməni separatçılar riyakarlıq edirlər. Məsələn, bir neçə gün öncə Şuşada olan, 12 ölkənin nümayəndələrinin daxil olduğu beynəlxalq səyahətçilər qrupu ekoloji fəalların dinc aksiya keçirdikləri Xankəndi-Laçın yoluna gəliblər. Səyyahlar yolda heç bir blokadanın olmadığını, Ermənistandan Xankəndiyə və əks istiqamətdə avtomobillərin sərbəst şəkildə hərəkət etdiyini öz gözləri ilə görüblər.

Qeyd edək ki, səyahətçilər səfər çərçivəsində Füzuli-Xocavənd-Şuşa-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl-Ağdam marşrutu üzrə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər ediblər. Bu səfər bir daha erməni yalanlarının üzə çıxmasına, işğaldan azad edilmiş ərazilərdəki dağıntılara, burada aparılan quruculuq-bərpa, minatəmizləmə işlərinə beynəlxalq səyahətçilərin marağının xeyli artdığını nümayiş etdirir. Xatırladaq ki, dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, "NomadMania" və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun geniş tərkibdə heyətlərinin azad edilmiş ərazilərə sayca 6-cı səfəri idi. Qrupda hərb tarixi ilə yaxından maraqlanan səyyahlar, o cümlədən səyahətlər üzrə kitabları ilə tanınan müəlliflər yer alır.

Bu səfərlər azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılmasında müstəsna rol oynayır. Beynəlxalq səyahətçilər 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən talan edilən, 2020-ci ildə ağır döyüşlərin getdiyi, indi isə bərpa və quruculuq dövrünü yaşayan işğaldan azad edilmiş əraziləri gəzməklə reallıqlarla, o cümlədən dünyanın biznes və turizm elitasının diqqətini cəlb edən Zəngəzur dəhlizi ilə bağlı görülən işlərlə yerində tanış olmuşlar. Müxtəlif ixtisas bölümünə aid səyyahlar jurnalistlərlə görüşlərində azərbaycanlı ekofəalların sabitliyə xidmət etdiyini, yolu bağlamadıqlarını və dinc erməni əhalisinin Xankəndiyə gediş-gəlişinə və humanitar yardım daşıyan avtomobillərə maneə törətmədiklərini bildiriblər.

Aksiya iştirakçılarının haqlı tələblərindən qorxuya düşərək Vardanyan kartı ilə oynayan separatçılar yerli erməniləri azərbaycanlılarla dinc, yanaşı, sülh şəraitində yaşamağa istiqamətləndirmək əvəzinə sərhəd bölgələrində günaşırı təxribatlar törədirlər. Dinc erməniləri müharibəyə, münaqişəyə sürükləməyə çalışırlar. Aksiya iştirakçıları isə buna qarşı çıxır və birmənalı olaraq erməni silahlılarının qalıqlarının Qarabağdan çıxarılmasını tələb edirlər.

Görünən odur ki, ekofəalların keçirdiyi bu aksiya fayda verməkdədir. Belə ki, aksiya başlanandan Laçın-Xankəndi yolu ilə Qarabağa silah-sursat, minalar və bu kimi hərbi təyinatlı məhsullar daşınmır. Mədənlərin istismarı dayandırılıb, sərvətlərimiz talanmır. Aksiya həm də onu sübutladı ki, hər hansı xarici şirkət Qarabağda iş görmək istəyirsə, ilk növbədə, Azərbaycan hökumətinin razılığı ilə olmalıdır. Aksiya ermənilərə başa saldı ki, onlara humanitar məqsədlər üçün verilmiş Laçın yolundan hərbi məqsədlər üçün istifadə edə bilməzlər. Etirazlar revanşistlərin, emissarların, "muzdlu mitinq"çilərin Qarabağa gəlişinin qarşısını da aldı. Gənclərin Şuşadakı mitinqi Xankəndidə və ətraf ərazilərdə yaşayan ermənilərə Ermənistana Azərbaycan bayrağı altından keçməli olduqlarını anlatdı. Qarabağın erməni sakinləri gördülər ki, haqq da, ədalət də, güc də Azərbaycan tərəfindədir. Sadə erməniləri "perspektiv"lə, boş vədlərlə aldadan vardanyanların, arutyunyanların danışıqları həmişə olduğu kimi, bundan sonra da uğursuzluqla nəticələnəcəkdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Rusiya sülhməramlılarına məxsus daha 11 avtomobil aksiya ərazisindən sərbəst keçib

**Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir.**



AZƏRTAC xəbər verir ki, Rusiya sülhməramlılarına məxsus daha 11 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Belə ki, 1 minik və 10 yük avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkət edib.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası iki aydan çoxdur fasiləsiz olaraq davam edir.

Qeyd edək ki, ötən il dekabrın 12-də səhər saatlarından başlayan aksiya 67 gündür davam edir.

# BQXK-yə məxsus yeddi avtomobilin aksiya ərazisindən keçidinə şərait yaradılıb





**Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar.**

AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, bu dəqiqələrdə Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 1 yük, 6 minik avtomobili ərazidən maneəsiz keçib.

Bu, bir daha göstərir ki, Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddialar saxtadır. Laçın-Xankəndi yolu bütün humanitar məqsədli maşınlar və mülki şəxslər üçün açıqdır.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabrın 12-dən başlayan aksiya 67 gündür davam edir.

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İslama İran kimi zərbə vuran ikinci bir dövlət yoxdur




**Bir neçə gün əvvəl İran "İslam inqilabının" 44-cü ildönümünü yenə "təmtəraqla" qeyd etdi. Həmişə olduğu kimi, "ruhanilər" "sionist rejimlərin", "din düşmənlərinin", Amerika və İsrailin bayraqlarını təpikləyərək, sonda da yandırdılar. Bununla da guya "İslam respublikası" bütün dünyaya hələ də "islamın düşmənləri" ilə dayanıqlı mübarizə apardığını nümayiş etdirdi.**

İlk növbədə qeyd edək ki, müqəddəs dinimizə İran qədər zərbə vuran, gözdən salan ikinci bir dövlət yoxdur. İran islam dinindən siyasi maraqları, zülm aləti kimi istifadə etdiyi, vətəndaşlarının doğal haqlarını pozduğu, ölkəsinin ərazisində ayrı-seçkilik toxumu səpdiyi və ən başlıcası, heç bir məhkəmə hökmü olmadan hansısa bir ayətullahın "fətvası" ilə XXI əsrdə insanları küçənin ortasında edam etdiyi üçün mübarizəni özündən başlamalıdır. Necə ki artıq aylardır İranda vətəndaşların kütləvi etiraz aksiyası keçirilir. İslam qanunlarına görə qonşu haqqı elə Tanrı haqqıdır. İran qonşuluq münasibətlərinə də açıq-aşkar heç nəyə məhəl qoymadan xəyanət edir. İllərdir minlərlə günahsız insanımızı qətlə yetirən, 1 milyona yaxın vətəndaşımızı öz tarixi yurdundan didərgin salan, insanların başına insanlığa sığmayan bəlalar gətirib işgəncələrlə qətlə yetirən, müqəddəs ocaqlarımızı təhqir edən, məscidləri donuz fermasına çevirib murdarlayan Ermənistana "işverənlik" edir, Ermənistana hərbi kəşfiyyat materialları ötürür. İşğalçı ölkəni silahlandırıb üstümüzə göndərir.

İran öz vətəndaşları olan 40 milyondan çox soydaşımıza illərdir azərbaycanlı olduqları üçün zülm edir. Şah rejimini devirib hakimiyyətə sahiblənən "mollaların" ilk işi azərbaycanlılara qarşı mübarizə aparmaq oldu. Məktəblərdə Azərbaycan dilində tədrisə qadağalar qoydu. Milli düşüncə, milli ruha sahib vətənpərvərlər ya həbsə atıldı, ya da ölkədən didərgin salındı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İranın bizə qarşı münasibəti daha da pisləşdi. İran öz təhlükəsizliyinə təhdidi inkişaf etmiş müstəqil Azərbaycandan, eyni zamanda Cənubi Azərbaycanda yaşayan 40 milyondan artıq soydaşımızdan gördü. Odur ki, Ermənistanla birləşib birbaşa müstəqilliyimizə qarşı mübarizəyə girişdi. Azərbaycanın iqtisadi-siyasi-hərbi gücü artdıqca "molla" rejiminin qərəzi, hikkəsi də böyüdü. İş o yerə gəlib çıxdı ki, bu terrorçu dövlət yanvarın 27-də səfirliyimizə silahlı hücum təşkil etməklə beynəlxalq hüquqla qorunan ərazilərimizə qəsd etmək niyyətini reallaşdırdı.

İran Ermənistanla müttəfiq dövlətdir. Bu müttəfiqlik İrana daha çox Azərbaycana, azərbaycanlılara olan nifrətini nümayiş etdirmək üçün lazımdır. Əgər belə olmasaydı, İranda yaşayan ermənilər üçün lüks şərait yaradılmazdı. Hazırda İranda cəmi 100 minə yaxın erməni yaşayır. Bu da İranın ümumi əhalisinin təxminən bir faizini təşkil edir. 40 milyondan çox soydaşımızın yaşadığı İranda bir dənə də olsun Azərbaycan dilində məktəbin olmadığı halda, İran ermənilərinin 59 tam orta məktəbi, 29 natamam orta məktəbi, qızlar üçün 8 natamam orta məktəbi, 13 uşaq bağçası, 3 erməni patrikliyi, 9 kilsə, 31 ibadətxana, 1 "Alik" ("Dalğa") adlı qəzeti, 7 adda aylıq jurnalı, eyni zamanda saytları və mədəniyyət mərkəzləri və nələri fəaliyyət göstərir.

İranda 14 yerdə qondarma "erməni soyqırımı" abidəsi ucaldılıb. Ermənilərə öz adətlərini, dillərini, bayramlarını sərbəst toplaşaraq həyata keçirmələri üçün bütün imtiyazlar verilib. Siyasi azadlıqlarını sərbəst ifadə etmələri üçün lazımi şərait yaradılıb. İranın müxtəlif şəhərlərində yaşayan 100 minlik erməni əhalisi İran parlamentində iki erməni deputatla təmsil olunur.

Şah rejimi dövründə ermənilərə aid bütün təhsil mərkəzləri bağlansa da, ayətullahlar hakimiyyətə gəldikdən dərhal sonra məktəblərin sayını 29-dan 59-a çatdırdılar.

İran əhalisinin 45 faizini təşkil edən Azərbaycan türklərinə isə mollalar tərəfindən səlib yürüşü başladıldı və indi də davam etdirilir. Azərbaycan dilində nəşr olunan bütün qəzet və jurnallar bağlandı. Bir "Varlıq" jurnalı qalmışdı ki, onun da xərclərini doktor Cavad Heyət özü ödəyirdi. Cavad Heyət vəfat edəndən sonra o da nəşrini dayandırdı.

Siyasətini qan, fitnə, fəsad, ölüm, terror üzərində quran bir ölkə, bir rejim nə haqla özünü "islam dövləti", "islamın hamisi" adlandırır, bunu anlamaq mümkün deyil.

Sonu çatmaqda olan molla rejimi hüquqa zidd, qeyri-insani əməlləri, törətdiyi terror aktları ilə əsl mahiyyətini ortalığa qoyur. İnsan haqlarının pozulması, vətəndaşların hüquqlarının nümayişkaranə surətdə tapdalanması bir ölkənin daxili işindən çox beynəlxalq məsələdir. Dünyanın indiki vaxtında kor təxəyyüllə yaşayıb, ölkəni idarə etmək olmaz. Özlərinə bu dünyada "cənnət yaradıb", sadə vətəndaşlarına "o dünyada cənnət vəd edən" mollalar anlamalıdırlar ki, qəzəbli xalq bir gün ayağa qalxıb onlara insanları qorxudub itaətdə saxlamaq üçün istifadə etdikləri "cəhənnəm"i elə bu dünyada yaşadacaqlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# REGİONLAR

## İşğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə 34, 5 min mənzil tikiləcək

**İşğaldan azad edilmiş bütün ərazilərdə bu il genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılması nəzərdə tutulur.**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Şəhərsalma məsələləri üzrə" İşçi qrupunun rəhbəri, Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov deyib.

"2022-2026-cı illərdə 34 min 500 mənzilin tikilməsi nəzərdə tutulub. Ağdam rayonunda 9700 mənzilin tikilməsi planlaşdırılıb. 2025-ci ildə Ağdam şəhərinə və ilk bərpa olunan kəndlərə əhalinin köçürülməsi nəzərdə tutulub", - deyə o bildirib.

## Ağdamda su təchizatı, tullantı və yağış suları şəbəkələri layihələndirilib

### Rayon mərkəzində mərkəzi istilik sistemi yaradılacaq

**Ağdam şəhərinin Baş planına uyğun olaraq, burada 190 kilometr uzunluğunda küçə şəbəkəsinin su təchizatı, tullantı və yağış suları şəbəkələri layihələndirilib, texniki ekspertizadan keçirilib.**




Şəhərsalma Məsələləri üzrə İşçi Qrupun Ağdamda keçirilən iclasında "Azərsu" ASC-nin Planlaşdırma və Layihələndirmə Departamentinin rəisi Bahadur Kəngərli bildirib: "Layihələndirməni bir neçə mərhələdə icra etmişik - bunlar şəhər şəbəkələri, daxili və şəhərdən kənar su təchizatı sistemi və tullantı sutəmizləyici qurğuları, kollektorlardır. Həmçinin bu gün sutəmizləyici qurğular ilə bağlı işlər layihələndirilir".

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov isə deyib ki, Qarabağ iqtisadi rayonunun "yaşıl enerji" zonası elan olunması ilə əlaqədar olaraq Ağdam şəhərində mərkəzi istilik sisteminin yaradılması qərara alınıb: "Bununla əlaqədar artıq qazanxana konsepsiyası işlənib, müvafiq hesabatlar aparılıb və aidiyyəti qurumlardan mərkəzi istilik sisteminin tətbiqi ilə bağlı müsbət rəylər alınıb. Artıq qazanxana layihəsinin işçi layihələrinin hazırlanması üçün müqavilə bağlanılıb".

## Muğanda müasir kanalizasiya sistemi

### Bu reallıq bir vaxtlar əlçatmaz arzu idi

**Biləsuvar Muğan rayonudur. Muğanınsa yayına düşməyəsən. Yay aylarında bu yerlərə Günəş od ələyir. Belə bir istidə suyu, kanalizasiyası olmayan şəhərdə yaşamaq nəinki çətindir, hətta mümkün deyil.**

Lakin həlli mümkün olmayan məsələ yoxdur, - deyiblər. Biləsuvarda su-kanalizasiya sistemlərinin yenidən qurulması artıq yekunlaşmaq üzrədir. Bu isə o deməkdir ki, işlər qurtarandan sonra istənilən hava şəraiti biləsuvarlıları ən azından rahatsız etməyəcək.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində ölkəmizdə çox işlər görülmüşdür. Biləsuvar da onlardan kənarda qalmamışdır. Tikinti-quruculuq, abadlıq işlərinin həyata keçirilməsi nəticəsində rayon mərkəzi, qəsəbə və kəndlər əvvəlki simalarını xeyli dəyişmişdir. Aqrar sektorda pambıqçılıq, taxılçılıq, heyvandarlıq üzrə yüksək göstəricilər əldə olunur. Bu da öz növbəsində həm də əhalinin güngüzəranını yaxşılaşdırmışdır.

Biləsuvar şəhərində su-kanalizasiya probleminin həlli isə bir ayrı mövzudur. Bir neçə il əvvəl Hacıqabul rayonu ərazisindəki Talış su anbarından çəkilən su xətti əhalinin sevincinə səbəb oldu. Şəhər sakinləri Bəhrəmtəpə su qovşağından kanalla rayon ərazisinə gələn boz-bulanıq, lilli sudan istifadə etmək məcburiyyətindən qurtuldular. İndi rayon mərkəzində hər bir evə dupduru su gəlir.

Lakin kanalizasiya xəttinin çəkilişinə başlansa da, işlər bir müddət nədənsə dayandı. Nəhayət, keçən il donmuş buz əriməyə başladı. Hazırda abonentlər üçün çəkilən kiçik diametrli borular küçələrdəki baş xətlərə birləşdirilir, habelə digər zəruri işlər görülür. Paralel olaraq işlərin başa çatdığı ərazilərdə kanalizasiya xətləri sistemə qoşulur.



Çirkli sular magistral kanalizasiya xətti ilə şəhərdən xeyli kənardakı kollektor-drenaj şəbəkəsinə axıdılır. Bu, müvəqqətidir. Çirkli suların təmizlənərək dənizə axıdılması üçün həmin ərazidə qurğu inşa edilir. Biləsuvar şəhərindən 13 kilometr kənarda tikilən qurğuya daxil olan çirkli su təmizləndikdən sonra buradan təxminən 15 kilometr kənardan gedən kanal vasitəsilə dənizə axıdılacaq.

Layihə rəhbəri Əflan Tağıyevin dediklərindən məlum olur ki, müasir tipli su qurğusunda işlərin başa çatdırılması və onun cari ilin aprel ayında istifadəyə verilməsi nəzərdə tutulub. Gün ərzində 10 min kubmetr çirkli su təmizləmək gücünə malik qurğu şlüzlərdən keçən mayeni tullantılardan, qumdan, yağdan və başqa maddələrdən təmizləyərək nasoslar vasitəsilə kənarlaşdıracaq. Tullantılar dərinliyi 8-10 metr olan beton kanallardan avtomatik üsulla çıxarılıb yaxınlıqdakı xətdə yerləşdirilmiş konteynerlərə boşaldılacaq. Qurğu robotlaşdırılmış sistem əsasında fəaliyyət göstərəcək.

Avadanlıqlar Türkiyədən və Almaniyadan gətirilmişdir. Obyektə elektrik xətti çəkilmiş, 1000 kilovoltluq transformator qoyulmuşdur. Bunlarla yanaşı, kanalizasiya qurğusunun fasiləsiz fəaliyyət göstərməsi üçün alternativ enerji mənbəyi kimi obyektdə generator quraşdırılacağı nəzərdə tutulmuşdur.

Ə.Tağıyev onu da bildirdi ki, yaxın gələcəkdə bu ərazidə kanalizasiya sularının 99 faiz təmizlənməsini təmin edəcək digər bir layihənin tikintisi həyata keçiriləcək. Həmin sulardan isə kənd təsərrüfatında istifadə ediləcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Astarada investisiya qoyuluşu artıb

**Astara rayonunda ötən il rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 54 milyon 691,1 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 97,5 faiz çox vəsait yönəldilib.**

Bu barədə AZƏRTAC-a Astara Rayon Statistika İdarəsindən bildirilib. Məlumat verilib ki, rayonda 2022-ci ildə ümumi sahəsi 8186 kvadratmetr olan 78 ev tikilərək istifadəyə verilib. Ümumi sərmayənin 54,5 faizi dövlət, 45,5 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Əsas kapitala yönələn vəsaitin 49296,6 min manatı və ya 90,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

2022-ci ildə tikinti müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən yerinə yetirilən tikinti işlərinin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz azalaraq 3561,7 min manat olub. Ümumi tikinti işlərinin 58,9 faizini əsaslı təmir, 41,0 faizini cari təmir, 0,1 faizini isə sair işlər təşkil edib.




Ümumi tikinti işlərinin 41,1 faizini dövlət mülkiyyətli tikinti müəssisələri yerinə yetirib, 58,9 faizini isə qeyri-dövlət tikinti müəssisələri həyata keçiriblər.

## Soğan(ın qiyməti) daha göz yaşartmayacaq

### İxracı tənzimlənir, idxalı isə stimullaşdırılır



**Azərbaycanda icra edilən iqtisadi islahatlarda aqrar sektorun önəmli yer tutmasının səbəbi məlumdur - ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilk növbədə bu sahə ilə bağlıdır. Elə dövlətin ən çox güzəştlər tətbiq etdiyi sektorun da kənd təsərrüfatı olması bu üzdəndir.**

Aqrar islahatlara gəldikdə, onun da əsas hədəfi ölkədə istehsal və emal edilən kənd təsərrüfatı və ərzaq məhsullarının kəmiyyətini və keyfiyyətini artırmaqla daxili tələbatı ödəməkdir. Açıqlanan statistik rəqəmlər göstərir ki, buna müəyyən qədər nail olunub: ət, süd, yumurta, toyuq əti, meyvə-tərəvəzdə daxili tələbatın 80-100 faizi yerli istehsal hesabına ödənilir. Qalan məhsullarda isə rəqəmləri ən azından kafi saymaq mümkündür.

Məlumdur ki, dünyada son vaxtlar ərzaq məhsulları sürətlə bahalaşırdı. Rusiya-Ukrayna müharibəsi, ondan öncə isə pandemiya səbəbindən bahalaşma sürət götürmüş, hətta ərzaq böhranını da yaratmışdı. BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) son dövrlərdə dərc etdiyi statistikadan aydın olur ki, qeyd etdiyimiz səbəblərdən ən çox qiymət artımı buğda, düyü, soya, şəkər, bitki yağları, soğan və s. məhsullar üzrə qeydə alınmışdı.

FAO-nun açıqladığı rəqəmlərə görə, dünya bazarında son 3 il ərzində soğana olan tələbat artmış və o üzdən həmin məhsulun qiyməti yüksəlmişdir. Təşkilatın məlumatında qeyd olunur ki, soğan istehsalı artsa da, tələbatı ödəmir. Sözsüz ki, bunun əsas səbəbi dünya əhalisinin, yəni dolayısı ilə soğanın istehlakının artmasıdır. FAO bildirir ki, 1980-ci ildə dünyada soğanın əkin sahələri 1,62 milyon hektar olduğu halda, 2020-ci ildə o, 5,5 milyon hektar sahəni əhatə edib. Nəticədə dünya üzrə soğan istehsalı 22-23 milyon tondan 2022-ci ildə 100 milyon tona çatıb. Soğana artan tələbat onun beynəlxalq ticarətdə həcminin və qiymətinin də artmasına səbəb olub. Konkret desək, dəyər ifadəsində soğan ticarətinin natural həcmi son 20 ildə 3 dəfədən çox artaraq 2021-ci ildə 52 milyard dolları ötüb.

Soğanın istehsal coğrafiyası da genişdir. Bu gün təxminən 170 ölkə onun yetişdirilməsi ilə məşğuldur. Əsas istehsalçı və ixracatçı ölkələr Niderland, Hindistan, Çin, İspaniya, Meksika, Misir və ABŞ-dır. Bununla yanaşı, başqa ölkələr də dünya bazarına az-çox soğan çıxarır.

Xəbər verildiyi kimi, fevral ayının əvvəlində Azərbaycan Respublikasının Nazirlər Kabineti soğanın ölkə ərazisindən aparılması müvəqqəti olaraq tənzimlənən mallar siyahısına daxil olunması barədə qərar qəbul edib. Bəs qeyri neft-qaz sektoru üzrə ixracda maraqlı olan ölkəmizin belə qərar verməsinin səbəbi nədir? Təbii ki, daxili bazarın qorunması və istehlakçıların mənafeyinin nəzərə alınması. Məlumdur ki, daxili bazarda cari ilin əvvəlindən soğanın qiyməti kəskin şəkildə artaraq 1,2-1,7 manata qədər yüksəlib. Qiymətin belə bahalaşması alıcılıq qabiliyyəti aşağı olan istehlakçılara çətinlik yaradıb. Odur ki, hökumət bunun qarşısını almaq üçün soğanın ixracını tənzimləməklə yanaşı, idxalı stimullaşdırmaq məqsədilə tədbir görüb. Yəni soğanı gömrük rüsumundan azad edib.

Kənd Təsərrüftaı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Firdovsi Fikrətzadə də deyir ki, dünya bazarında soğana olan tələbatın çoxalması və qiymətin yüksək olması ölkəmizdən onun ixracının görünməmiş həcmdə artmasına səbəb olduğu üçün daxili tələbatın ödənilməsində problemlər yaşanmağa başlandı: "Təkcə ötən ilin dekabr ayında Azərbaycandan 727, cari ilin yanvarında isə 1864 ton soğan ixrac olundu. Daxili bazarda illik soğan istehlakı təxminən 250-270 min tondur. Hər il daxili tələbatdan 45-50 min ton çox ehtiyat yaranırdı. Məlum səbəbdən bu il ixrac rekord həddə artdığı üçün daxili bazarda ehtiyat tükəndi və o üzdən qiymət bahalaşdı".

Elə isə belə halların təkrar olunmaması üçün nə etmək lazımdır? Fikrimizcə, bu sahədə Kənd Təsərrüfatı Nazirliyinin üzərinə böyük məsuliyyət düşür. Belə ki, nazirlik təkcə soğanın deyil, digər kənd təsərrüfatı məhsullarının da dünya bazarındakı vəziyyətini daim nəzarətdə saxlamaqla təhlillər aparmalıdır. Bundan sonra yerlərdə fermerlərlə görüşlər keçirib hansı məhsullara daxili və xarici bazarlarda tələbatın olması barədə məlumat verməlidir. Belə olan halda daxili tələbat ödəndikdən sonra ixracı da artırmaq mümkündür. Bu həm fermerlərin, həm də yerli istehlakçıların xeyrinə olar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Göygöldə fermerlərə aqroturizm üzrə təlim keçirilib

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə həyata keçirilən "Şəhərdən Kəndə" layihəsi çərçivəsində regionlarda fermerlər üçün təlimlər təşkil olunur.**

Növbəti təlim "Ailə təsərrüfatlarında aqroturizm fəaliyyətlərinin praktik təşkili" mövzusu üzrə Göygöl rayonunda təşkil olunub. Təlimdə aqroturizm sahəsi üzrə rayonun Toğana, Çaykənd, Şəhriyar, Topalhəsənli, Toğanalı və digər kəndlərində fəaliyyət göstərən ümumilikdə 20 fermer iştirak edib. Təlimlər həm nəzəri, həm də təcrübi modullar üzrə baş tutub. Təlim iştirakçıları aqroturizmin əsas prinsipləri, aqroturizm fəaliyyətlərinin icrası, təhlil və strategiya metodları, biznes planın hazırlanması, marketinq alətlərindən effektiv istifadə və digər mövzular üzrə məlumatlandırılıblar. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Qeyd edək ki, "Şəhərdən Kəndə" layihəsinin məqsədi ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanlarının yaradılmasıdır.



Layihə çərçivəsində bu günə qədər yerli və əcnəbi mütəxəssislər tərəfindən həyata keçirilən təlimlərdə 135 təsərrüfat sahibi iştirak edib. Ümumilikdə isə layihəyə qoşulmaq üçün 200-dən artıq aqrar sahibkar qeydiyyatdan keçib. Baxış keçirilən 150 fermer təsərrüfatından 110-u aqroturizm fəaliyyətləri üçün uyğun hesab edilib.

## Fevralın 18-19-da "Kənddən Şəhərə" yarmarkaları təşkil olunacaq

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fevralın 18-19-da "Kənddən Şəhərə" həftəsonu yarmarkaları keçiriləcək. Yarmarkaların təşkil olunmasında əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.**



Həftəsonu yarmarkalarında 56 regiondan 70-dən çox fermer iştirak edəcək. Fermerlər 80-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə logistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.

Yarmarkalar aşağıdakı ünvanlarda keçiriləcək:

*Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının yanı)*

*Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, 5B ("İnqilab" kinoteatrının yanı)*

## Cəlilabadda pərakəndə ticarət dövriyyəsinin dəyəri 616,7 milyon manat olub

**Cəlilabad rayonunda keçən il pərakəndə ticarət dövriyyəsinin dəyəri 2021-ci ilə nisbətən 1,3 faiz artaraq 616 milyon 757,7 min manat təşkil edib.**

Cəlilabad Rayon Statistika İdarəsindən bildirilib ki, hesabat dövründə topdansatış ticarət dövriyyəsinin dəyəri isə 19 milyon 19,4 min manat olub.

Pərakəndə ticarət dövriyyəsinin ümumi dəyərinin 330,5 milyon manatını ərzaq, içkilər və tütün məmulatları, 286,2 milyon manatını isə qeyri-ərzaq malları təşkil edib. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ərzaq malları, içkilər və tütün məmulatlarının satışı 10,3 faiz azalıb, qeyri-ərzaq mallarının satışı isə 17,9 faiz artıb.

# Hər qaranlıq gecənin bir işıqlı səhəri var

## "Talesizlər şəhəri" kitabını oxuyarkən ...

**Yazıçı-jurnalist Rəfiqə Sadıqova "Talesizlər şəhəri" adlı yeni kitabı ilə oxucularının növbəti görüşünə gəlib. Sanki o şəhərin içərisindən keçərək gəlib. O şəhərin ki sakinləri nankor qonşunun, namərd düşmənin əli ilə el-obasından dərbədər edilərək 30 il olmazın çətinliklərə düşüb, yurd-yuva həsrəti ilə, tikdiyi evin, qurduğu güzəranın nisgilini yaşaya-yaşaya dözüb.**






Yox, kitabın müəllifi məcburi köçkün həyatı yaşamayıb. Amma bir vətəndaş, qadın-ana kimi öz soydaşlarının dərdini bilib, duyub, dərk edib, onların vəziyyətindən yaxından xəbərdar olub.

Qarabağın bir parçası olan Ağdamda doğulub, böyüyüb boya-başa çatan bir insan kimi məcburi köçkünə çevrilən qohum-əqrabasının, sevdiyi, tanıdığı şəxslərin yaşayışından, qayğılarından, problemlərindən heç də uzaq olmayıb, onların ağrılarını yaxından hiss edib.

Qarabağ dərdi bir jurnalist kimi onun taleyindən də keçib. Yəni hadisələrin salnaməsini izləyib, üç onillik ərzində bir milyon qaçqını, məcburi köçkünü olan Vətənində nələr baş verdiyindən başqalarından tez xəbər tutub, onları təkcə qəzet səhifələrinə deyil, yaddaşına, hafizəsinə də yazıb.

Nəhayət, bütün bunları yazıçı təxəyyülündən keçirərək, qələmi ilə cilalayaraq oxunaqlı bir povest kimi ərsəyə gətirib. "Talesizlər şəhəri" bədii əsər olsa da, əslində, insanların yaşamış olduğu həyatın güzgüsüdür. Tarixin bir parçasıdır ki, orada məcburi köçkünlüyün ilk günündən başlayaraq dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının, əsgər və zabitinin qazandığı zəfərədək olan dövr öz əksini tapıb. Kitaba "Ön söz əvəzi"ndə deyildiyi kimi: "Talesizlər şəhəri" kitabı xalqımızın qara günlərindən, məşəqqətli illərindən, otuzillik ağır, acınacaqlı taleyindən bəhs edir. Bu kitabdakı əsərlərin bir qəhrəmanı var: mənəviyyatlı insanlar, Azərbaycan xalqı! Bu gün düşməni yenən, həsrətə, sitəmə, əzablı məcburi köçkün ömrünə qalib gələn Azərbaycan xalqı! İtkilərlə dolu, əmanət qəbirlərlə xatırlanan ümidsiz, çarəsiz insan ömürlərinə qalib gələn Azərbaycan xalqı!"

Kimlərdir bu mənəviyyatlı, 30 ilin sərt sınaqlarından çıxan insanlar? Ən ağır günlərdə belə mənliyini qoruyan, qürurunu sındırmayan həm kişilər, həm də qadınlar. Dar gündə bir loxmasını da bölməyi bacaranlar...

"Düzün düzəngahında yan-yana düzülmüş çadırlar yeni sahiblərini gözləyirdi. Heç vaxt dilimizdə yer almayan bir termin yaranmışdı. Adına da "Çadır şəhəri" deyilirdi. Həyatın ironiyası! Çadır özü nədir ki, onun şəhəri də nə ola. Lakin dünya kar və kor olduğu üçün çadır şəhəri, çadıra sığınan böyük bir insan ordusu yaranmışdı..." - yazır müəllif. - Bayaqdan yol gələn insanlar çadırın kölgəsinə çəkilib torpağın üstündə oturdular. Gözləməkdən başqa çarə yox idi. Boğçasında, çantasında yeməyi, çörəyi olanlar süfrə açdılar. Kənarda duranları səsləyən Südabə:

- Burada heç birimiz ev sahibi deyilik. Yaxın gəlin, Allah verəndən bir tikə kəsin, - dedi".

Südabə kimi genişürəkli, möhkəm iradəli insanlardır Rəfiqə Sadıqovanın əsərinin qəhrəmanları. Bütün doğmalarını itirmiş Südabə atadan-anadan yetim qalan xəstə, çəlimsiz bir uşağa sahib çıxaraq onu böyüdüb araya-ərsəyə gətirir. Özünün də ehtiyac içində yaşadığı o dövrdə, bax, həmin o məşəqqətli illərdə... Bu yolda Rasim adlı o uşağı xəstəlikdən qurtarmaqda Südabənin dəstəkçisi Murad həkim olur.

Müəllifin "Murad doxdur" kimi təqdim etdiyi bu bacarıqlı həkim də talesizlər şəhərinin sakinidir. Şəxsi taleyi də gətirməyən bir insandır. Bununla belə, camaata öz peşəsi, insanlığı ilə arxa-dayaqdır. Rasim isə böyüyüb torpağı xilas edənlərdən biri olur.

"Talesizlər şəhəri"nin digər sakinlərinin də dözümü, yaman günə sinə gərməsi barədə xeyli danışmaq mümkündür. Çünki müəllif onların hər birindən ürəkdolusu rəğbətlə, həssaslıqla, canıyananlıqla yazıb. Bu şəhərin sakinlərini cəsarətlə digər şəhər və bölgələrimizin - yurd-yuvasından perik salınmış minlərlə soydaşımızın ümumiləşdirilmiş obrazı kimi qəbul etmək də olar. Onu da qeyd edək ki, müəllifin kitabda təqdim etdiyi digər hekayə, esse və düşüncələr də həyati həqiqətləri əks etdirir, ustalıqla qələmə alınıb və maraqla oxunur.

..."Ağdamdan heç yaza da bilmirəm". Bu sözləri "Gəncənin səsi" qəzetinin baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyi Gəncə şəhər təşkilatının sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rəfiqə xanım Sadıqova şanlı Qələbəmizdən təxminən iki il əvvəl demişdi. O zaman bu yerlər onun hiss və duyğularında doğma, əziz bir canlı kimi əsirlikdə idi. "Amma yazacağam, indiyədək yazdıqlarımın ən yaxşısını azad edilmiş Ağdamdan yazacağam", - demişdi. Və Qarabağ düşmən tapdağından azad olunandan sonra belə dəyərli bir povest yazdı. Arzu edək ki, növbəti əsəri yurd yerinə qayıdan insanlarımızın yaşantıları, hiss və həyəcanları, sevinc və xoş qayğıları barədə olsun.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək ilə bağlı ictimai maarifləndirmənin təşkili" adlı müsabiqə keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək ilə bağlı ictimai maarifləndirmənin təşkili" adlı müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 2 mart 2023-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 3 mart 2023-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

*Müsabiqə komissiyası*

# Uşaqlar arasında influenza infeksiyasına yoluxma artıb

**Son vaxtlar uşaqlar arasında kəskin respirator virus infeksiyasına yoluxma hallarının artdığı müşahidə olunur. Yayılan virusun influenza olduğu təsdiqlənib. Xəstəlik yüksək hərarət, boğaz ağrısı, öskürək, əzələ və sümük ağrıları, burun axıntısı, bəzi hallarda qusma və ishal kimi kataral əlamətlərlə özünü büruzə verir.**



Üç (A, B, C) fərqli tipi olan influenza infeksiyasının B tipi daha çox uşaq və yaşlılarda qeydə alınır. Daha kəskin gedişatlı A tipinə adətən böyüklərdə rast gəlinsə də, son vaxtlar uşaqlar arasında da yayıldığı müşahidə edilir. Testlər nəticəsində influenzaya yoluxan uşaqlarda A tipi aşkarlanıb.

### Hərarət 38 dərəcədən yüksək deyilsə...

Kliniki Tibbi Mərkəzin həkim-pediatrı Ramil Nəsibov deyir ki, son həftələrdə uşaqlar arasında influenza infeksiyası əhəmiyyətli dərəcədə artıb: "Xəstəliyə səbəb immunitetin azalmasıdır. İmmuniteti güclü olan insanlar onu simptomsuz və ya zəif əlamətlərlə keçirirlər. Hava-damcı yolu ilə yayılan infeksiyanın gizli dövrü 7 gündür. Sonra digər əlamətlər üzə çıxaraq 3-5 gün davam edir və tədricən sağalma dövrü başlayır".

Temperaturun orqanizmin qoruyucu funksiyası olduğunu söyləyən R.Nəsirov bildirir ki, bədənin istiliyi 38 dərəcədən yüksək deyilsə, hərarəti endirmək tövsiyə edilmir: "Orqanizm virus və ya digər mikroorqanizmlərlə mübarizə etmək üçün 38 dərəcəyə yaxın temperaturda daha aktiv mübarizə aparır. Hərarəti zorla aşağı salmaq xəstəliyin gedişini dayandırmır, əksinə, müxtəlif ağırlaşmalara gətirib çıxarır".

"Xüsusi hallarda, məsələn, febril qıcolma, ürək-tənəffüs çatışmazlığı, bəzi ürək xəstəlikləri zamanı hərarəti aşağı salmaq lazım gəlir. Ona görə hansı vəziyyətdə temperaturun aşağı salınmasının vacib olduğunu və hansı vəziyyətdə gözləməyin mümkün olduğunu fərqləndirmək lazımdır. Qalan bütün hallarda hərarət 38 dərəcədən yuxarı olduqda müdaxilə etmək lazımdır. Qızdırmanın əsas fəsadı olan febril qıcolmalar valideynləri qorxudur. Amma unudulmamalıdır ki, yüksək davamlı temperaturda baş verən febril qıcolma adətən əvvəllər qıcolmaları və ya sinir sisteminin digər patologiyası olan uşaqlarda rast gəlinir", - deyə pediatr bildirib.

### Antibiotiklə müalicə edərkən məsləhətləşmək lazımdır

R.Nəsibov deyir ki, hərarəti aşağı salmaq üçün bütün dünyada əsasən Asetaminofen (Parasetamol) tərkibli dərmandan istifadə edilir: "Hərarətsalıcı dərmanlar uşaqlara yaş və çəkisinə uyğun olaraq 4-5 saatdan tez olmayaraq verilməlidir. Həmçinin bir neçə fərqli dərman preparatlarını eyni zamanda istifadə etmək olmaz (məsələn, həm ağızdan, həm də şam kimi düz bağırsaqdan). Əks halda qastroenteroloji problemlərə, mədənin selikli qişasında qanaxmaya və ya qaraciyərdə funksiya pozuntusuna səbəb olub xəstəliyin gedişatını daha da ağırlaşdıra bilər".

Pediatr onu da bildirib ki, mütəxəssislə məsləhətləşmədən antibiotik qəbuluna başlamaq olmaz. "Xəstəliyin ilk dövrlərində antibiotiklərdən istifadə məsləhət görülmür. Əgər beş gündən sonra irəliləyiş müşahidə olunmazsa, yalnız həkim göstərişi ilə antibiotik müalicəsinə başlanıla bilər. Müşahidələr göstərir ki, valideynlər uzunmüddətli hərarətdən qorxaraq kortəbii olaraq antibiotik istifadəsinə başlayırlar. Bunun isə effekti olmur".

### Çoxlu maye qəbulu məsləhətdir

Həkim onu da qeyd edir ki, hərarət zamanı uşaq orqanizmi dəri vasitəsilə sürətlə maye itirir: "Bədəndə mayenin aşağı düşməsi bütün sistemlərin və orqanların işini əhəmiyyətli dərəcədə çətinləşdirir, eyni zamanda zəhərli birləşmələrin bədəndən kənarlaşdırılması prosesini zəiflədir. Ona görə də temperatur yüksək olduqda uşağa kifayət qədər maye içirtmək vacibdir. Körpənin yaşından və zövqündən asılı olaraq maye, şirin və qazlı içkilər istisna olmaqla, otaq temperaturunda adi su, qurudulmuş meyvələrin həlimi, meyvə şirələri və sair verilə bilər. Qusmanı təhrik etməmək üçün maye və ya sulu yemək az porsiyalarla verilməlidir. Maye qəbulu az olan hallarda lazım gələrsə, uşağın yaşına uyğun maye köçürülməlidir".

"Evdə sağlam mikroiqlim yaratmaq vacibdir. Bu, tənəffüs prosesini normallaşdırmağa və soyuqdəymənin qarşısını almağa kömək edir. Uşaqlar yaşdan asılı olaraq gündə ən az 1-2 litr su içməli, mövsümi meyvə-tərəvəzlərdən istifadə etməli, qidalarında zülal, lif tərkibli balanslaşdırılmış təamlara yer verməlidirlər", - deyə R.Nəsibov bildirib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələri və gəmiləri üçün Sumbata kağızı, itiləyici, yonucu və kəsici daşların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

*Tender komissiyası*


# Fevralın 17-də Abşeron yarımadasının bəzi yerlərində hava dumanlı və yağıntılı olacaq

Azərbaycanda fevralın 17-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək, əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə havanın dumanlı və yağıntılı olacağı gözlənilir. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 2°-dək isti, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 770 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı, səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir. Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayev və akademiyanın kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayev və akademiyanın kollektivi MAA-nın Fizika-texnologiya fakültəsinin tələbəsi

**ASƏF ŞAHLAR OĞLU SALAHLININ**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, Azərbaycan-Özbəkistan Parlamentlərarası Dostluq qrupunun üzvləri adından qrupun rəhbəri Eldar İbrahimov Özbəkistan Senatının Gənclər, mədəniyyət və idman məsələləri komitəsinin sədri

**BƏXTİYOR SAYFULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və Senatın üzvlərinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Faiq Məmmədova əzizi

**ZAHİD QİYASBƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "AzərEnerji" ASC-nin kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "AzərEnerji" ASC-nin kollektivi "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları professor Nigar Kamilovaya atası

**MİR-NAĞI AĞASEYİD OĞLU KAMİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə






www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5071
Sifariş 406

Qiyməti 40 qəpik